30 mart 2022 №23-24 (1897) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Vətəndaşları narahat edən hansı məsələ varsa...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Administrasiyası Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib.

Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlətimizin başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79 ünvanında yerləşən beşmərtəbəli binada vətəndaşların rahat müraciət etmələri və onların müraciətlərinə baxılması üçün zəruri şərait yaradılıb.

səh. 2

## Türk dünyası Bursada bir araya gəlir

### "Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilinin rəsmi açılışı keçiriləcək




Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilən Bursa bu missiyanı rəsmən qəbul edir. 30-31 mart tarixlərində Bursa şəhərində Türk dünyasının geniş nümayəndə heyətlərinin iştirakı ilə silsilə tədbirlər keçiriləcək.

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti də martın 29-da Türkiyəyə yola düşüb.

"Bursa-2022: Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilinin açılış proqramı martın 30-da səhər saatlarında Osmanqazi və Orhanqazi türbələrinin ziyarət olunması ilə başlayacaq. Bursanın tarixi tikililərindən olan Uzunçarşıda Türk Dünyasının Mədəniyyət Paytaxtı Koordinasiya Mərkəzinin açılışı keçiriləcək. Axşam isə 20 ölkədən solist və bədii kollektivlərin – ümumilikdə 700-dək sənətçinin iştirakı ilə möhtəşəm açılış konserti olacaq.

Martın 31-də TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının növbədənkənar toplantısı keçiriləcək. Toplantıda təşkilatın gələcək fəaliyyəti ilə bağlı qərarlar qəbul ediləcək.

Qeyd edək ki, bu günlər TÜRKSOY-un təşəbbüsü ilə Türkiyənin müxtəlif şəhərlərində silsilə Novruz mərasimləri keçirilib. "Türk dünyasının yeni gün görüşməsi – Novruz-2022" şüarı ilə gerçəkləşən mərasimlər son bir neçə gündə Bursanın Osmanqazi, Kestel, İnegöl, Gemlik rayonlarında davam edib.




## "Açıq qapı"dan görünənlər

"Teatr – Yer üzündə insanlar, tanrılar, bitkilər, heyvanlar, yağış damcıları, göz yaşları arasında bərabərlik və yeni həyat məkanı yaratmaqdır". Bu sözlər 27 mart – Dünya Teatr Günü ilə bağlı teatr ictimaiyyətinə xitab edən amerikalı rejissor Piter Sellarsın müraciətindəndir. Müraciətin tam mətni bu günün təsisçisi olan Beynəlxalq Teatr İnstitutunun saytında yayılıb.

Nədənsə dünyanın başının siyasi tamaşalara, hərbi mizanlara qarışdığı vaxtda bu sözlər məni çox kövrəltdi. Sanki bütün dünya bir cəbhədə, teatr isə qarşı tərəfdədir və o, intizarla öz həqiqətinin təntənəsini gözləyir. Ehmalca hamımıza "Dünya özü kiçik səhnədir" çağırışını edir. Amma hər şeyə rəğmən teatr yenə öz birləşdirici və bütün mənalarda gözəlləşdirici mövqeyindədir.

davamı səh. 5-də

## "Arşın mal alan" Sofiya səhnəsində bolqar dilində

### Bolqarıstan teatr truppası Üzeyir bəyin ölməz əsərini iki dildə oynayır

Dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan" (1913) operettası, bir əsrdən çoxdur Azərbaycan səhnəsini bəzəməklə yanaşı, müxtəlif xarici ölkələrin səhnələrində də tamaşaya qoyulur. Bu günlərdə dünya şöhrətli operettanın daha bir premyera xəbəri Bolqarıstanın paytaxtından gəldi.



Novruz bayramı münasibətilə martın 22-də Bolqarıstanın Kırcali Musiqili Teatr Mərkəzi truppasının təqdimatında operettanın bolqar dilində nümayişi olub.

Sofiya Musiqili Teatrında təqdim edilən tamaşanı Bolqarıstanın dövlət və hökumət nümayəndələri, deputatlar, mədəniyyət xadimləri, həmçinin diasporumuzun təmsilçiləri izləyiblər.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyevin quruluş verdiyi səhnə əsərinin rəssamı Tomiana Tomova Naçeva, xoreoqrafı Ginka Kirçevadır.

Azərbaycan operettasının bolqar dilində premyerası tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb və yerli mətbuatda geniş işıqlandırılıb.

Qeyd edək ki, "Arşın mal alan" eyni quruluşda 2021-ci ilin yanvar ayında Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Azərbaycan Mədəniyyət Nazirliyi və Sofiyadakı səfirliyimizin birgə əməkdaşlığı çərçivəsində Bolqarıstanın qədim tarixə və mədəniyyətə malik Kırcali şəhərində türk dilində nümayiş olunmuşdu.

## "Bir xalçanın sirri: muzey obyektlərinə yeni yanaşma"

### Layihə innovativ təqdimat üsullarının sərgi məkanına tətbiqini əks etdirir

Martın 29-da Azərbaycan Milli Xalça Muzeyində "Bir xalçanın sirri: muzey obyektlərinə yeni yanaşma" layihəsinin təqdimat mərasimi keçirildi.

Videoinstalyasiya sənətşünas, beynəlxalq ekspert Cahangir Səlimxanovun "Mədəni üfüqlər" adlı müəllif proqramına daxil olan 6 layihədən biridir.

Cahangir Səlimxanov çıxış edərək bildirdi ki, layihə innovativ təqdimat üsullarının sərgi məkanına tətbiqini əks etdirir: "Pandemiya səbəbindən layihənin məşğələlərini iki ay ərzində onlayn keçirtdik. Daha sonra həftədə iki dəfə olmaqla iştirakçıların fikir və ideyalarını müzakirə etdik. İştirakçılara əvvəlcədən elan etmişdik ki, 6 layihə seçiləcək və onların üzərində daha iki ay işləyəcəyik. Martın 25-dən silsilə şəklində bu layihələrin təqdimatını keçiririk".



Azərbaycan Milli Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova dedi ki, videoinstalyasiyada təqdim olunan Qarabağ xalçası nəfis şəkildə canlanıb. Musiqinin müşayiətində mistik bir videomaterial ərsəyə gəlib.

Direktor layihədə ilk olaraq Qarabağ xalçasının seçilməsinin təsadüfi olmadığını bildirdi: "Çünki XVIII əsrə aid Qarabağ xalçası muzeyin ən qiymətli eksponatlarından biridir. Xalça 15 ildən çox İtaliyada şəxsi kolleksiyada saxlanılıb. Bu xalçanı əldə etmək və ölkəmizə qaytarmaq üçün iki ildən artıq iş aparılıb. Nəhayət, bu nadir sənət əsəri azərbaycanlı xeyriyyəçinin dəstəyi ilə xarici kolleksiyadan əldə edilərək muzeyimizə bağışlanıb".

davamı səh. 2-də

## 31 mart Azərbaycanlıların Soyqırımı Günüdür

Azərbaycan tarixinin ən qanlı səhifələrindən olan 1918-ci ilin mart qırğınlarından 104 il ötür.

Şaumyanın rəhbərlik etdiyi "Bakı Soveti"nin daşnak-bolşevik hərbi qüvvələrinin müsəlman azərbaycanlıların "sovet hakimiyyətinə qarşı çıxması" bəhanəsi ilə Bakıda və ətraf kəndlərdə, eləcə də daha sonra Şamaxıda, Qubada, Lənkəranda, Gəncəbasarda, Qarabağın azərbaycanlı kəndlərində törətdiyi qırğınlarda minlərlə insan – müsəlman-türklər, habelə digər millətlərdən olanlar (ləzgilər, talışlar və s.) qətlə yetirilmişdi.

1918-ci il qırğınlarının ən qanlısı martın 31-də Bakıda yaşanmışdı. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının memarlıq incilərindən sayılan "İsmailiyyə" binasına od vurmuş, şəhərin bir hissəsini xarabalığa çevirmişdilər...

Prezident Heydər Əliyev 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda bu acı hadisələrə və ümumilikdə XIX əsrin əvvəlində Şimali Azərbaycanın Rusiyaya ilhaqından sonra ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasətinə tarixi-siyasi qiymət verilib. Sənəddə erməni millətçi qüvvələri tərəfindən azərbaycanlılara qarşı 1905-1907, 1918-ci illərdə həyata keçirilmiş qətliamlar, azərbaycanlıların Ermənistan ərazisindəki tarixi yurdlarından 1948-1953-cü illərdəki deportasiyası, 1988-ci ildə Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmənin aparılması, bu prosesin Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində davam etməsi təhlil olunub. Fərmana əsasən, 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.



## Tarixi-dini abidələr ölkəmizdə yaşayan xalqların mənəvi dəyərlərini təcəssüm etdirir

Nəinki Avropa Parlamentinin nümayəndələri, bütün dünya bilməlidir ki, Ermənistandan fərqli olaraq Azərbaycanda, onun paytaxtı Bakıda və bölgələrdə müxtəlif millətlərin və dinlərin nümayəndələri, o cümlədən minlərlə erməni əsilli vətəndaşlar sülh və əmin-amanlıq şəraitində dinc yaşayır.

Bu sözlər ölkəmizdəki dini konfessiya rəhbərlərinin Avropa Parlamenti (AP) tərəfindən Azərbaycan əleyhinə qətnamənin qəbul edilməsi ilə bağlı yaydıqları birgə bəyanatda yer alıb.



"Biz, Azərbaycanda fəaliyyət göstərən müsəlman, pravoslav, alban-udi və yəhudi konfessiyalarının rəhbərləri dindarlarımızın arzu və iradəsini ifadə edərək, 2022-ci il martın 10-da Avropa Parlamenti tərəfindən anti-Azərbaycan qətnaməsinin qəbul edilməsi ilə bağlı birgə bəyanatla çıxış edərək, sənədi ikili standartlara və islamofobiya meyillərinə məruz qalan və ermənipərəst siyasəti müdafiə edən mövqenin ifadəsi kimi dəyərləndiririk. Birmənalı şəkildə bildiririk ki, qətnamənin mətnində yer almış fikirlər yanlış və böhtan xarakteri daşıyır və tamamilə qəbuledilməzdir", – deyə bəyanatda vurğulanır.

davamı səh. 4-də

Soyqırımı Memorial Kompleksinə ekskursiyalar



səh. 4

Mədəniyyət naziri Xaçmazda vətəndaşları qəbul edəcək

səh. 4



Nizami Kino Mərkəzində Braziliya filmləri festivalı

səh. 8

№23-24 (1897)
30 mart 2022
www.medeniyyet.az

# Vətəndaşları narahat edən hansı məsələ varsa...

## Hər kəs 1111 nömrəsinə zəng edə və Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinə gələ bilər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Administrasiyası Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib.

Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlətimizin başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79 ünvanında yerləşən beşmərtəbəli binada vətəndaşların rahat müraciət etmələri və onların müraciətlərinə baxılması üçün zəruri şərait yaradılıb. Mərkəzdə gözləmə zalları, qəbulların aparılacağı xidməti otaqlar, kollektiv qəbullar üçün nəzərdə tutulan zallar, həkim, psixoloq, hüquq məsləhətçisi, ana və uşaq otaqları var.

Vətəndaş Qəbulu Mərkəzində tətbiq olunan yeniliklərdən biri də Çağrı mərkəzinin istifadəyə verilməsidir. Vətəndaşlar 1111 nömrəsinə zəng edərək onları narahat edən məsələlər barədə məlumat verə biləcəklər. Bu müraciətlər operatorlar tərəfindən dərhal qəbul olunaraq vətəndaşlara müvafiq izahat veriləcək. Mərkəzdə tətbiq olunan daha bir yenilik isə ölkənin müxtəlif bölgələri ilə birbaşa videokonfranslar keçirilməsi imkanının



yaradılmasıdır. Burada ölkənin bütün şəhər və rayon icra hakimiyyətlərinin vətəndaş qəbulu otaqları və Prezident Administrasiyasının müvafiq struktur bölməsi ilə paralel olaraq əlaqə saxlamaq imkanı verən xüsusi rabitə sistemi var.

Mərkəzin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradacaq. Mərkəzdə həm ilk dəfə qəbula gələn, həm də əvvəlcədən qəbula yazılan vətəndaşlar üçün iki qeydiyyat köşkü quraşdırılıb. Vətəndaşlar şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçib müvafiq ardıcıllığa riayət etməklə qəbula yazıla və müraciət edə biləcəklər. Burada fəaliyyət göstərəcək könüllülər də bu prosesdə vətəndaşlara yardımçı olacaqlar.

Dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan Mərkəzdə bu işin təşkili üçün hər cür şərait təmin edilib.

Vətəndaşlar qəbulla yanaşı, Prezident Sarayına ənənəvi qaydada, yaxud "president.az" rəsmi səhifəsi vasitəsilə elektron məktubla da müraciət edə bilərlər. Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətlərinin hər biri hərtərəfli təhlil olunur və qaldırılan bütün məsələlərə operativ qaydada baxılır.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejiminin yumşaldılması barədə qəbul etdiyi qərara əsasən, dövlət orqanlarında vətəndaşların qrup halında və fərdi qaydada qəbul edilməsinə artıq icazə verilib. Hazırda mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən vətəndaşların səyyar qəbulları həyata keçirilməkdədir. Eyni zamanda Prezident Administrasiyasının struktur bölmələrinin rəhbərləri tərəfindən də vətəndaşlar qəbul ediləcəklər.

Qeyd edək ki, ötən il Prezident Administrasiyasına daxil olan müraciətlərin 60 faizi ərizələrdən, 39 faizi şikayətlərdən və təkliflərdən ibarət olub. Müraciətlər əsasən sosial müdafiə, İkinci Qarabağ müharibəsi və onun nəticələri, hüquq-mühafizə orqanlarının, məhkəmələrin fəaliyyəti, əfv məsələləri, səhiyyə xidmətləri, torpaq məsələləri və işğaldan azad edilmiş ərazilərlə bağlı olub. Bu müraciətlərə operativ baxılaraq müvafiq kömək göstərildiyinə görə dövlətimizin başçısı İlham Əliyevin ünvanına həmin dövrdə 30 minə yaxın minnətdarlıq məktubu daxil olub.

# Dənizkənarı Milli Parkın sanitariya-mühafizə zonası təsdiq edilib

Bakı bulvarının – Dənizkənarı Milli Parkının sanitariya-mühafizə zonasının ümumi sahəsi təsdiq edilib.

Bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti müvafiq qərar qəbul edib. Baş nazir Əli Əsədovun imzaladığı 28 mart 2022-ci il tarixli qərar "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 166 nömrəli Fərmanının 1.4.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə qəbul edilib.

Qərara əsasən, Azərbaycan Respublikası Dənizkənarı Milli Parkının sanitariya-mühafizə zonası 535,33 hektarlıq sahədə təsdiq edilib. Qərara sözügedən sahənin xəritəsi əlavə edilib.

# "Kitab marketinqi" mövzusunda ustad dərsi

Bakı Dövlət Universitetinin (BDU) Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyəti, doktorant və magistrantların iştirakı ilə ölkəmizdə qeyd olunan Elm Günü (27 mart) münasibətilə silsilə tədbirlər çərçivəsində ustad dərsi təşkil olunub.




Ustad dərsində Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Akif Marifli "Kitab marketinqi" mövzusunda məruzə ilə çıxış edib. Son dövrlər BDU-da təşkil olunan ustad dərslərini yüksək qiymətləndirən şöbə müdiri kitab marketinqinin məqsədi, mahiyyəti, müasir dövrdəki əhəmiyyəti barədə məlumat verib. Qeyd edib ki, kitab marketinqinin səmərəli təşkili əlaqələrin qurulması və geniş oxucu kütləsinin cəlb edilməsi baxımından mühüm amildir. Ona görə də kitab marketinqinə investisiya qoyulması kitab sənayesinin prioritetlərindən hesab olunur. Bu prosesin aparıcı qüvvəsi olan marketoloqlar istehlakçı təşviqinə şərait yaradır, nəticədə kitab bazarının canlanmasına, kitab məhsulunun ad və tiraj göstəriciləri baxımından inkişafına töhfələrini verirlər.

Mühazirədə kitab marketinqinin funksiyaları, marketinq planının elementləri, sosial media və blogerlərlə iş mexanizmlərinin tətbiqi, kitab reklamı kimi mövzular şərh edilib. Bu sahədə dünya və Azərbaycan təcrübəsi arasında paralellər aparılıb, innovativ istiqamətlərin tətbiqi ilə bağlı səmərəli təkliflər irəli sürülüb.

Akif Marifli həmçinin son dövrlər Mədəniyyət Nazirliyi tərəfindən kitabxana və nəşriyyatların fəaliyyət perspektivləri ilə bağlı aparılan islahatlar, həyata keçirilən layihələr və müəyyənləşdirilmiş hədəflər barədə də məlumat verib. Qeyd olunub ki, ölkənin kitabxana infrastrukturunun idarə edilməsində, oxuculara peşəkar kitabxana-informasiya xidmətlərinin göstərilməsində BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi məzunlarının mühüm rolu var və aparılan islahatlar sayəsində bu rol daha da artacaq.

Ustad dərsi auditoriya tərəfindən maraqla dinlənilib, mövzu ətrafında müzakirələr aparılıb. Akif Marifli dinləyicilərin suallarını cavablandırıb.

# "Bir xalçanın sirri: muzey obyektlərinə yeni yanaşma"

*əvvəli səh. 1-də*

Daha sonra çıxış edən layihənin kuratoru Könül Rəfiyeva layihənin Almaniya Xarici İşlər Nazirliyinin Mədəniyyət və Təhsil Təşkilatlarına Beynəlxalq Yardım Fondu, Höte İnstitutu və digər tərəfdaşların maliyyələşdirdiyi, rəssamlar, mədəniyyət və incəsənət xadimləri üçün nəzərdə tutulan "Mədəni üfüqlər" proqramı çərçivəsində həyata keçirildiyini diqqətə çatdırdı: "Bu layihə bizim üçün böyük əhəmiyyətə malikdir. Biz artıq bir ildən çoxdur ki, Cahangir Səlimxanovla birlikdə Azərbaycan muzeylərində innovativ yanaşma üzərində işləyirik. Düşünürəm ki, layihə bəyənilərsə, bu işlərin davamı olacaq".

Sonda Xalça Muzeyinin dəyərli eksponatlarından olan XVIII əsrə aid unikal Qarabağ xalçasının videoinstalyasiyası nümayiş etdirildi. Qrafik-dizayner Timur Əmirxanovun vizuallaşdırdığı videoinstalyasiya tar ifaçısı İbrahim Babayevin "vIBrant" adlı yeni albomuna daxil olan "Muğam+" bəstəsi ilə müşayiət olunur.

**Nurəddin Məmmədli**

# İçəridəki şərait

## Kitabxana, kompüter otağı, peşə ixtisasına yiyələnmə, çalışmaq imkanı





Ölkəmizdə ötən əsrin 30-cu illərində inşa olunmuş və dövrün tələblərinə cavab verməyən penitensiar müəssisələrin əvəzinə inşa edilmiş yeni müəssisələrdə nümunəvi şərait yaradılır, məhbusların faydalı işlə məşğul olmaları üçün istehsalat sahələri təşkil edilir.

Prezident İlham Əliyev cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış olub.

Hər iki müəssisədə məhkumların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman sahələri, təhsil və peşə ixtisaslarına yiyələnmələri üçün lazımi infrastruktur yaradılıb. Burada zəruri ədəbiyyatla təchiz olunmuş kitabxana, oxu zalı və kompüter otağı var. Müəssisələrdə yaradılmış istehsal bölməsində məhkumlar toxuculuq, xalçaçılıq, biçmə, tikiş və şirniyyat sexlərində çalışacaqlar.

Müəssisənin tibb-sanitariya hissəsində həkim otaqları, müasir avadanlıqla təchiz edilmiş müayinə-diaqnostika və stomatologiya kabinetləri, laboratoriya, aptek, pediatr otağı və digər yardımçı otaqlar yerləşir. Yeni penitensiar müəssisədə məhkumlarla görüşlər üçün də bina inşa olunub.

Müəssisələrin ərazisində inşa olunmuş ikimərtəbəli məktəb binasında sinif otaqları ilə yanaşı, əmək, kompüter və digər otaqlar, idman zalları yerləşir. Burada yaradılmış şərait məhkumların, xüsusilə yetkinlik yaşına çatmayanların təhsil almalarına və peşə ixtisaslarına yiyələnmələrinə imkan verir.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində cəmiyyətimizin həssas təbəqəsi olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir. Burada yaradılan müasir şərait məhkumların hüquqlarının təminatına, onların səmərəli islah olunaraq sosial adaptasiyasına xidmət edəcək.

Xatırladaq ki, Bakının Zabrat qəsəbəsində yeni istintaq təcridxanası, Naxçıvan Muxtar Respublikasında və Şəkidə müasir penitensiar komplekslər inşa olunub. Gəncə və Lənkəran şəhərlərində, habelə paytaxtın Umbakı qəsəbəsində belə müəssisələrin tikintisi aparılır.

# "Kitabxanalar həyatla doludur"

## Ölkəmiz İstanbulda 58-ci "Beynəlxalq kitabxana həftəsi"ndə təmsil olunur

Martın 28-dən aprelin 3-dək İstanbulda "Kitabxanalar həyatla doludur" mövzusunda 58-ci "Beynəlxalq kitabxana həftəsi" keçirilir. Tədbirdə ölkəmizi Azərbaycan Milli Kitabxanasının direktor müavini Ədibə İsmayılova təmsil edir.

Milli Kitabxanadan bildirilib ki, martın 29-da həftənin rəsmi açılış mərasimi olub. Tədbir Əhməd Həmdi Tanpınar Ədəbiyyat Muzeyi Kitabxanasında keçirilib.

Mərasimdə İstanbul Mədəniyyət və Turizm İdarəsinin rəhbəri Coşqun Yılmaz çıxış edərək "Kitabxana həftəsi"nin məqsədindən söz açıb, Türkiyə kitabxanaları, xüsusilə xalq kitabxanalarının fəaliyyəti haqqında, eləcə də nəşriyyatlar barədə iştirakçılara məlumat verib. Bildirib ki, hazırda Türkiyə kitab nəşri sahəsində dünyada öndə gedən on ölkədən biridir.

Daha sonra keçirilən paneldə Britaniya Kitabxanası, Azərbaycan Milli Kitabxanası, Kipr Beynəlxalq Universiteti İqtisadi və inzibati elmlər fakültəsi, Albaniya Milli Kitabxanası və digər kitabxanaların təmsilçiləri iştirak ediblər.

Çıxışçılar kitabxanaların əhəmiyyəti, kitab irsinin qorunub saxlanılması, eləcə də kitab-



xanalar tərəfindən həyata keçirilən layihələrdən danışıblar.

Azərbaycan Milli Kitabxanasının direktor müavini Ədibə İsmayılova "Milli Kitabxanalar cəmiyyətin informasiya tələbatının ödənilməsinin əsas mərkəzi kimi" mövzusunda çıxış edib. O, respublikada əhaliyə yüksək səviyyədə kitabxana-informasiya xidmətini təmin edən Milli Kitabxananın fəaliyyətinin spesifik cəhətlərindən söz açıb. Direktor müavini Azərbaycan Milli Kitabxanasının son illərdə həyata keçirdiyi ənənəvi və virtual layihələrdən də bəhs edib.

Ə.İsmayılovanın çıxışında pandemiya dövründə oxuculara onlayn xidmətlərin göstərilməsi, sənədlərin elektron çatdırılması, dissertasiya və dövri mətbuat materiallarından onlayn istifadənin təşkili sahəsində Azərbaycan Milli Kitabxanasının fəaliyyətinin böyük maraq doğurduğunu diqqətə çatdırıb, bu təcrübənin öyrənilərək yayılmasını tövsiyə edib.

Panel iclasın sonunda Ədibə İsmayılovaya 58-ci "Beynəlxalq kitabxana həftəsi"ndə iştiraka görə sertifikat təqdim olunub.

# "Qəbuledilməz və məsuliyyətsiz bəyanat"

## Rusiya rəsmiləri teleşou havasına girmiş deputatı məzəmmət ediblər

Rusiya Dövlət Dumasının deputatı Mixail Delyaginin Azərbaycanın ünvanına dedikləri Moskvanın rəsmi mövqeyini əks etdirmir və qəbuledilməzdir.

Bunu martın 29-da keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. O deyib ki, Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov artıq Delyaginin bəyanatlarını şəkildə şərh edib və biz də bu qiymətləndirmə ilə razıyıq. "Öz adımdan əlavə edə bilərəm ki, bu cür bəyanatları tamamilə qəbuledilməz və məsuliyyətsiz hesab edirik. Bu bəyanatlar heç bir halda Rusiya rəhbərliyinin Bakı ilə müttəfiqlik əlaqələri və strateji tərəfdaşlıq münasibətlərinin qurulmasına yönələn rəsmi mövqeyini əks etdirmir. Biz əminik ki, Dövlət Dumasının rəhbərliyi də bu cür təxribatçı bəyanatlara müvafiq qiymət verəcək", – deyə M.Zaxarova vurğulayıb.

Qeyd edək ki, Rusiya Dövlət Dumasının İqtisadi siyasət komitəsinin sədr müavini Mixail Delyagin martın 28-də dövlət televiziyasında ("Rossiya 1" kanalı) çıxışı zamanı Azərbaycanı Qarabağda sülhü pozmaqda ittiham edərək, Azərbaycan Müdafiə Nazirliyinin Rusiya Müdafiə Nazirliyinə verdiyi rəsmi cavabları təhlükə adlandırıb, ölkəmizə qarşı hədələyici ifadələr işlədib.

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Dövlət Dumasının deputatı Mixail Delyagini öz şəxsi emosiyalarını cilovlamağa və Azərbaycanın ünvanına qeyri-dost ifadələrlə çıxış etməməyə çağırıb.

"Bu bəyanat şəxsi emosiyaların coşub-daşdığı müstəvidə yerləşir. Biz bu emosiyalara nəzarət etməyə və xüsusən də bizim tərəfdaşlarımıza münasibətdə belə bəyanatlardan çəkinməyə səsləmək istərdik", - deyə D.Peskov vurğulayıb.

Moskva rəsmilərinin məzəmmət çıxışlarından sonra Mixail Delyagin martın 29-da üzrxahlıq videosu yayıb. O bildirib ki, işlətdiyi ifadələrə görə azərbaycanlılar və digər millətlərin nümayəndələrindən səmimi qəlbdən üzr istəyir. Qeyd edib ki, onun bu cür çıxış etməsinə sözügedən verilişin formatı təsir edib, başqa sözlə, teleefirdə siyasi tokşou havasına girib...

Qeyd edək ki, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu da "Rossiya 1" kanalının daxil olduğu Ümumrusiya Dövlət Teleradio Verilişləri Şirkətinin rəhbərliyinə Azərbaycan ictimaiyyətinin ciddi narazılığını çatdırıb və belə halların qəbuledilməz olduğunu vurğulayıb. Bu barədə Azərbaycanın Rusiyadakı Səfirliyinin yaydığı bəyanatda bildirilir.

# Postmünaqişə dövründə regionda əməkdaşlıq üçün perspektivlər yaranıb

## "Ermənistandan üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərini yerinə yetirməsini gözləyirik"

Bu gün postmünaqişə dövründə regionda sülh və əməkdaşlıq üçün yeni perspektivlər yaranıb. Ölkəmiz sülh tərəfdarı kimi Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın yerinə yetirilməsinə sadiqdir. Biz Ermənistandan da həmin Bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini gözləyirik.

Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova bunu martın 29-da Qazaxıstanın Almatı şəhərində MDB Parlamentlərarası Assambleyası (PA) Şurasının iclasında çıxışı zamanı deyib. İclas MDB PA-nın 30 illiyinə həsr olunub.




Milli Məclisin sədri əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub. Milli Məclisin sədri çıxışında diqqətə çatdırıb ki, MDB PA siyasi, hüquqi, iqtisadi, humanitar və digər sahələrdə qanunvericilik fəaliyyətində təcrübə mübadiləsi üçün əlverişli müstəvidir.

Sahibə Qafarova çıxışında Azərbaycan ərazilərinin Ermənistan işğalından azad edilməsi nəticəsində Cənubi Qafqazda yaranmış yeni reallıqlar haqqında da məlumat verib. Bildirib ki, Ermənistan konstruktiv yanaşma göstərməli, münasibətlərin ölkələrin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı surətdə tanınması, eləcə də regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi əsasında normallaşmasına çalışmalıdır. Bu, regionda real sülhə və sabitliyə nail olmaq üçün yeganə yoldur.

Milli Məclisin sədrindən sonra çıxış edən Ermənistan Parlamentinin sədri Alen Simonyan guya Azərbaycanın atəşkəs rejimini pozması haqqında iddialar irəli sürüb. Sahibə Qafarova yenidən söz alaraq bildirib ki, Ermənistan spikerinin iddiaları həqiqətə uyğun deyil. Azərbaycan Müdafiə Nazirliyi artıq bəyan edib ki, ölkəmizin suveren ərazisi olan Qarabağda mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi aparılır. Lakin buna baxmayaraq, martın 26-sı səhər saatlarında qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribat törətməyə cəhd göstərib. Dərhal görülən tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri geri çəkilməyə məcbur edilib.

Milli Məclisin sədri bir daha qeyd edib ki, Azərbaycan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata sadiqdir. Lakin həmin Bəyanatın 4-cü bəndinə uyğun olaraq, Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərindən tam olaraq çıxarılması indiyə qədər icra edilməyib. Buna görə də Bəyanatın müddəalarını pozan Azərbaycan deyil, məhz Ermənistandır.

Sahibə Qafarova həmçinin diqqətə çatdırıb ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur.

# İslam ölkələrindən Qarabağdakı bərpa-quruculuq işlərinə dəstək

Xəbər verildiyi kimi, martın 22-23-də Pakistanın İslamabad şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının 48-ci sessiyasında qəbul edilən sənədlər sırasında Azərbaycanla bağlı 4 qətnamə də var.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, sessiyada İslam dünyası ilə bağlı bir çox mövzular müzakirə edilib. Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov çıxış edərək müzakirə olunan bir sıra məsələlərə dair ölkəmizin mövqeyini diqqətə çatdırıb.

Sessiyada Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri ilə bağlı siyasi, iqtisadi və mədəni məsələləri əhatə edən, eləcə də Xocalı soyqırımı ilə bağlı qətnamələr qəbul edilib. Qeyd edək ki, İƏT tərəfindən ənənəvi olaraq hər il qəbul olunan bu mövzulu qətnamələrə bölgədəki son vəziyyət nəzərə alınmaqla yeni müddəalar daxil edilib.

"Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması" adlı qətnamədə Azərbaycanın cavab əməliyyatları nəticəsində işğal olunmuş ərazilərini azad etməsi və hərbi əməliyyatların dayandırılması üzrə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat İƏT ölkələri tərəfindən alqışlanıb. Ermənistan və Azərbaycan arasında münasibətlərin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılmasına çağırış edilib.

"Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycanın ərazilərində İslam tarixi və mədəni ziyarətgahlarının dağıdılması və təhqir edilməsi" adlı qətnamədə işğal dövründə Azərbaycan ərazilərindəki İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının dağıdılması, talan edilməsi, oğurlanması, qanunsuz yerdəyişməsi və ya mənimsənilməsi, eləcə də bu obyektlərə qarşı vandallıq aktlarının törədilməsi pislənilib, azad olunmuş ərazilərdə yerləşən məscidlərin Ermənistan tərəfindən təhqir olunması şiddətlə qınanılıb. Qətnamədə Azərbaycanın ona dəymiş zərərə görə təzminat tələb etmək haqqı, Ermənistanın isə bu təzminatı ödəmək məsuliyyəti təsdiq olunub.

"Azərbaycan Respublikasına iqtisadi yardım" adlı qətnamədə Azərbaycan ərazilərinin işğaldan azad olunmasının Azərbaycan ərazisindəki bir milyondan çox məcburi köçkünün öz evlərinə təhlükəsiz və şərəfli qayıdışına və beləliklə də, ciddi humanitar problemlərin aradan qaldırılmasına imkan verəcəyi qeyd olunub. Bu xüsusda üzv ölkələrə, İslam İnkişaf Bankı və digər İslam institutlarına işğaldan azad olunmuş torpaqlara məcburi köçkünlərin geri dönüşünü təmin etmək üçün bu ərazilərin yenidən qurulması və bərpasında Azərbaycan hökumətinə və xalqına yardım etməyə çağırış öz əksini tapıb.

"Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı qətnamədə 1992-ci ilin fevral ayında Azərbaycanın Xocalı şəhərində və digər işğal edilmiş ərazilərində Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən azərbaycanlı mülki əhali və hərbi şəxslərə qarşı törədilmiş kütləvi vəhşiliklər bir daha pislənilib, İƏT ölkələri münaqişə dövründə Azərbaycanın Xocalı şəhəri və işğal edilmiş digər ərazilərində törədilmiş cinayətlərin müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və soyqırımı kimi yerli və beynəlxalq səviyyədə tanınması istiqamətində lazımi səy göstərməyə səslənilib. Qətnamədə həmçinin "Xocalıya ədalət!" beynəlxalq təşviqat kampaniyasının fəaliyyəti yüksək qiymətləndirilib və üzv dövlətlər kampaniyanı dəstəkləməyə və onun fəaliyyətində yaxından iştirak etməyə dəvət edilib.

İƏT Xarici İşlər Nazirləri Şurasının 48-ci sessiyasının yekun sənədində – "İslamabad Bəyannaməsi"ndə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işlərinə dəstək ifadə olunub.

"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında silahlı münaqişənin sona çatmasını alqışlayan İƏT-in xarici işlər nazirləri Ermənistanın təcavüzündən ciddi zərər çəkmiş işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması səylərində Azərbaycan hökuməti və xalqı ilə tam həmrəy olduqlarını bir daha təsdiq etdilər. Bu işlər məcburi köçkünlərin tezliklə təhlükəsiz və ləyaqətli şəkildə öz torpaqlarına qayıtmasına imkan yaratmaq məqsədi daşıyır", – deyə sənəddə vurğulanır.

# Sloveniya Prezidenti Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin heyəti ilə görüşüb

Sloveniya Prezidenti Borut Pahor Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin heyətini qəbul edib.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin üzvü – Gürcüstanın sabiq xarici işlər naziri Eka Tkeşalaşvili, baş katib Rövşən Muradov və baş katibin müavini İlahə İbrahimli iştirak ediblər. Mərkəzin regional və qlobal miqyasda həyata keçirdiyi layihələr, Ukraynadakı hadisələrin yaratdığı qaçqın böhranı və onun doğura biləcəyi fəsadlar barədə müzakirələr aparılıb.

Mərkəzin mətbuat xidmətindən bildirilib ki, görüş zamanı Sloveniya Prezidenti Borut Pahor IX Qlobal Bakı Forumuna dəvət edilib.

Mərkəzin həmsədri Vayra Vike-Freiberganın müəllifi olduğu "Nizami Gəncəvinin "Yeddi gözəl"i və ədəbiyyatdan digər esselər" kitabı və "Qələmin sehri: Nizami Gəncəvinin "Xəmsə"sindən seçilmiş miniatürlər" adlı nəşr Sloveniya Prezidentinə təqdim olunub.

# Moldova telekanalında Şuşa haqqında reportaj

Moldovanın "Jurnal TV" kanalında Azərbaycanın işğaldan azad edilən Qarabağ bölgəsindən, o cümlədən Şuşa şəhərindən bəhs olunan reportaj yayımlanıb.

Telekanalın jurnalisti Kelin Jukovskinin hazırladığı reportajda Azərbaycanın otuz il əvvəl itirilmiş ərazilər üzərində nəzarəti bərpa etdikdən sonra apardığı yenidənqurma işləri haqqında məlumat verilir.




"Bakıdan Şuşaya mikroavtobusla beş saata yaxın yol getdim. Sürücülərin naviqator olmadan belə bu yolda azmaq şansı yoxdur. Azərbaycanın paytaxtından çıxdıqdan sonra demək olar hər kilometrdə onları "Qarabağın ürəyi"nə işarə edən lövhələr qarşılayır. Şuşa 28 il Ermənistan qoşunları tərəfindən işğal altında saxlanılmış Qarabağ bölgəsinin ən böyük şəhəridir. Azərbaycan 2020-ci ildə şəhəri azad edib və bu gün burada insanlar özlərini azad hesab edirlər", – deyə o bildirir.

Jurnalist vurğulayır ki, Şuşa şəhərinin azad edilməsinin əhəmiyyəti çox yüksək idi. Şəhər tarixinin ən zəngin və əzəmətli abidəsi Şuşa qalasıdır. Qala öz mövqeyinə görə Qarabağı tanıdır və onun nəyə qadir olduğunu göstərir.

Reportajda Şuşanın tarixindən və burada görüləcək quruculuq-bərpa işlərindən də söz açılır.

# Uşaq kitab festivalı keçiriləcək

Aprelin 2-3-də Bakıda ilk dəfə Uşaq kitab festivalı keçiriləcək. "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin (ANAİB) təşkilatçılığı ilə "Passaj"da (N.Rəfibəyli küçəsi 12/14) gerçəkləşəcək festivalda müxtəlif nəşriyyatlar və kitab evləri uşaq kitablarını sata biləcəklər.

Bundan başqa, festivalda müxtəlif panellər, nağıl, tamaşa saatları təşkil olunacaq, tanınmış uşaq yazarları, eləcə də incəsənətin müxtəlif sahələrini təmsil edən mütəxəssislərlə görüş keçiriləcək.

Tədbirdə həmçinin Türkiyədən dəvət olunmuş tanınmış uşaq yazıçılarının imza mərasimləri təşkil ediləcək.

**Nurəddin**

# Çağdaş dünyanın ehtiyac duyduğu dəyərlər

## Nifrəti, kin-küdurəti kənara qoyub əl-ələ tutmaq, dinc yaşamaq

Novruz yaddaşdır. Özündə həyatın sirlərini, gələcəyə, xoşbəxtliyə, bolluğa ümidi cəmləşdirən, türk xalqlarının bu günə qədər yaşatdığı, qoruyub gələcək nəsillərə ötürdüyü, müqəddəsləşdirdiyi bir ənənədir. Novruz xəzinədir. Öz mənası və elementləri ilə Türk dünyasına, həmçinin dünya mədəniyyətinə töhfə verən, onu zənginləşdirən incidir. Novruz bir başlanğıcdır. Gələcəyin daha yaxşı olacağına inamdır. İnkişaf üçün cızılan yeni bir yoldur. Göstərilən əzmdir. Hər şeyə rəğmən közərən ümid çırağıdır. Novruz çağırışdır. Zamanın dayanmaz axınını ləngidərək, kollektiv yaddaşda reallaşan, bizlərə tariximizi, əcdadlarımızı, keçdiyimiz əzəmətli yolu xatırladan sədadır. Və nəhayət, qloballaşan dünyamızda Novruz sülhdür. Uşaqların göz yaşlarının olmamasıdır, insanların öz yurd-yuvasından ayrı düşməməsidir. Münaqişəni, nifrəti, incikliyi, kin-küdurəti unudaraq razılığa gəlmək, əl-ələ tutmaq, birlikdə dinc yaşamaqdır.



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bu fikirləri qurumun Novruz bayramına həsr olunmuş tədbirində çıxışı zamanı deyib.

Günay Əfəndiyeva qeyd edib ki, Novruz bayramı türk xalqlarının qədim mədəni irsinin ən zəngin səhifələrindən biridir. Qardaş xalqlarımız bu bayramı əsrlərdən bəri təntənə ilə qeyd edirlər.

Mənzil-qərargahı Bakıda yerləşən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda bu il də ənənəvi Novruz mərasimi keçirilib. Mərasimdə Azərbaycanda akkreditə olunmuş səfirlər, beynəlxalq təşkilatların nümayəndələri, millət vəkilləri iştirak ediblər.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Fariz Rzayev bildirib ki, Novruz xalqın, millətin yeni mərhələyə qədəm qoyduğu bayramdır. Novruzun BMT tərəfindən rəsmi beynəlxalq bayram elan edildiyini (2010-cu il) diqqətə çatdıran nazir müavini vurğulayıb ki, bu, Azərbaycanın, ənənəvi dost, tərəfdaş olan ölkələrin, yaxın qonşularımızın birgə nailiyyətidir:

Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov, Qırğız Respublikasının səfiri Kairat Osmanaliyev, Türkiyə səfirinin birinci müavini Barış Sayğın, Özbəkistan səfiri Bahrom Aşrafhanov, Türkmənistan səfiri Mekan İşanquliyev, Macarıstan səfiri Viktor Sederkenyi və Litva səfiri Egidiyus Navikas Türk dünyasının qədim bayramı olan Novruzla bağlı fikirlərini bölüşərək, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun türk xalqlarının qədim adət-ənənələrinin yaşadılmasında rolunu qeyd ediblər.

Mərasim iştirakçıları Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qurucu üzv ölkələri olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin, eləcə də Özbəkistan və Türkmənistanın, müşahidəçi üzv Macarıstanın və keçən il təşkilatla əməkdaşlıq memorandumu imzalayan Litvanın mədəni irsinin, milli mətbəx nümunələrinin təqdim olunduğu masalara baxış keçiriblər.

# YARAT-da belçikalı rəssamın sərgisi

## "Panoptikum: Təpəgözün baxışında donmuş anlar"

YARAT Müasir İncəsənət Mərkəzində belçikalı konseptualist rəssam Mişel Fransuanın "Panoptikum: Təpəgözün baxışında donmuş anlar" adlı fərdi sərgisi keçirilir.





Sərgi restriktiv, süni vasitələr və onu əhatə edən təbii elementlər arasındakı dialoq kimi nəzərdə tutulub və azadlıq ehtirasını simvolizə edir. İmmersiv instalyasiya, rəssamın Bakıdakı tədqiqat rezidenturasının nəticəsidir və ətrafdakı obyektlərə siklopik (təpəgöz) gözlə baxan müşahidə qülləsinin mərkəzi hissəsindən ibarətdir. Panoptikum (yunanca "hər şeyi görən") hər şeyi müşahidə edir, həmçinin bizim varlığımızı çağırılmamış qonaqlar və ya şahidlər kimi əks etdirir.

M.Fransuanın əsəri ilhamını XVIII əsrdə sosioloq və filosof Ceremi Bentam tərəfindən ixtira edilmiş institusional həbsxana nəzarət sisteminin memarlıq modelindən alır. Dairəvi müşahidə otaqlarının pəncərələrini güzgülərlə əvəzləyən rəssam qüllənin strateji məqsədini tərsinə çevirir.

Beləliklə, M.Fransuanın sərgisi şəxsi həyatın toxunulmazlıq hüququnu sanki "oğurlayan və talayan" nəzarət cihazlarının sui-istifadəsindən bezmiş bugünkü cəmiyyətin skeptik tənqidi kimi başa düşülə bilər.

Sərgi bizi reallığın və hər günümüzün dalğaları üzərində gəzinməyə dəvət edir, qısa bir zaman kəsiyində rəssamın melanxolik absurd teatrında iştirak edən təsadüfi turistlərə və ya aktyorlara çevirir. Onun əsərlərinin mərkəzində kiçik, sadə təsvirlərin və predmetlərin mürəkkəb dünyada bizim bəşər övladları olaraq necə davrandığımıza qərar verən əsas elementlər kimi çıxışını təhlil etmək ideyası durur.

Kuratoru Barselonada yaşayan belçikalı rəssam Erix Vays (Erich Weiss) olan sərgi oktyabrın 4-dək davam edəcək.

№23-24 (1897)
30 mart 2022
www.medeniyyet.az

# Mədəniyyət naziri Xaçmazda vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov tərəfindən aprelin 15-də saat 10:00-da Xaçmaz şəhər Tarix-Diyarşünaslıq Muzeyində Xaçmaz şəhərindən və Şabran rayonundan olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar nazirliyin info@culture.gov.az elektron poçt ünvanı və (012) 493 30 02 telefon nömrəsi vasitəsilə aprelin 12-dək qəbula yazıla bilərlər. Qəbula gəlmək istəyən vətəndaşların həmçinin aşağıda qeyd edilən əlaqələndirici şəxslərə müraciət etmələri tövsiyə olunur.

| Sıra №-si | Şəhər (rayon) | Əlaqələndirici şəxs | Əlaqə telefonu |
|---|---|---|---|
| 1. | Xaçmaz | Fərid Musayev (Xaçmaz RMİ, məsləhətçi) | (050) 543 54 33<br>(02332) 5 39 01 |
| 2. | Şabran | Təvəkkül Əliyev (Xaçmaz RMİ Şabran Heydər Əliyev Mərkəzi, direktor) | (070) 966 17 90<br>(02335) 3 44 64 |

# Səhnədən səngərə: qazi Ələmdar Quliyev



Mədəniyyət Nazirliyinin "Səhnədən səngərə: Qazilər" layihəsində 2020-ci ilin Vətən müharibəsində iştirak etmiş sənətçilər, mədəniyyət işçiləri haqqında materiallar təqdim olunur. Layihənin on birinci buraxılışı Yevlax şəhər Mədəniyyət Mərkəzinin əməkdaşı, xanəndə Ələmdar Quliyevə həsr olunub.

Şərəfli ömür yolu səhnədən səngərə uzanan Ələmdar Quliyev qardaşları ilə birgə Vətən müharibəsinə könüllü yollanıb. Qazimiz sağlamlığını doğma torpaq uğrunda fəda etsə də, azad Azərbaycanın aydın səmasına qürurla baxdığını deyir.

Bu gün sevimli peşəsinə, övladlarına möhkəm sarılan Ələmdar Quliyevin arzusu işğaldan azad olunmuş bütün tarixi ərazilərimizi şəhər-şəhər, kənd-kənd gəzib, "Qarabağ şikəstəsi"ni səsləndirməkdir.

# Muğam-sənət beşiyimiz

Bölgələrdə "Şuşa İli"nə həsr olunan müxtəlif tədbirlər keçirilir. Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) tərəfindən "Mədəniyyətimizin beşiyi – Şuşa" adlı regional yaradıcılıq müsabiqəsi elan edilib. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın çoxəsrlik mədəni, tarixi irsinin təbliğ olunması və qorunması, eyni zamanda xüsusi istedada malik uşaq və gənclərin yaradıcılıq potensialını inkişaf etdirmək və yeni istedadları üzə çıxarmaq məqsədilə keçirilən müsabiqə musiqi, bədii qiraət və təsviri sənət sahələrini əhatə edir. Müsabiqədə qeyd edilən sahələr üzrə I, II və III yerlərə layiq görülmüş iştirakçılar Sabirabad RMİ tərəfindən fəxri fərman və mükafatlarla təltif olunacaqlar.

İsmayıllı RMİ-nin əhatə etdiyi Qəbələ rayon Mədəniyyət Mərkəzi tərəfindən rayonda müvəqqəti yerləşən Şuşa şəhər 24 nömrəli ümumi orta məktəbdə qala-şəhərə həsr olunmuş tədbir keçirilib. Mərkəzin əməkdaşı Nicat Baxışov məktəblilərə Şuşa şəhərinin tarixi-mədəni mirası, burada yaşamış görkəmli şəxsiyyətlərin yaradıcılığı və otuz ilə yaxın işğal dövründə erməni vəhşiliyinə məruz qalmış, talan edilmiş mədəniyyət nümunələri haqqında məlumat verib. Sonra azad Şuşada görülmüş quruculuq işlərini özündə əks etdirən videoçarx nümayiş etdirilib.

# Reza Deqati: "Mütləq Şuşaya gəlin..."

1992-ci ilin aprelində şəhərin erməni qüvvələrinin əlinə keçməsinə bir neçə həftə qalmış Şuşanı tərk edən sonuncu əcnəbi jurnalist mən olmuşam. Həmişə geri qayıtmaq istəyirdim və 2020-ci ildə şəhərə gələn ilk jurnalist mən oldum.




Bu fikirlər məşhur fotoreportyor Reza Deqatinin Şuşadan çəkdiyi videopaylaşımda yer alıb.

Fotoqraf "İnstagram" səhifəsindəki paylaşımında yazır: "Azərbaycan abidələrinin bu dərəcədə vandalizm və geniş çaplı dağıdılması məni sarsıtdı. Mən bütün Qarabağı, xüsusən Şuşanı işğaldan azad olunduğu gündən fotolarını çəkirdim və onu qar altında çəkib Novruzda orda olmağı arzulayırdım. Hər iki arzum bir anda gerçəkləşdi. Sevimli bağçasında oynayan uşaq kimi idim. Mütləq Şuşaya gəlin. Ümid edirəm ki, bəyənəcəksiniz...".

# Azsaylı xalqların mədəni irsi diqqət mərkəzindədir

## Qaxingiloy kəndində Mədəniyyət evinin yeni binası istifadəyə verilib

Martın 28-də Heydər Əliyev Fondunun Qax rayonunun Qaxingiloy kəndində inşa etdirdiyi Mədəniyyət evinin açılışı keçirilib.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun şöbə müdiri Elvin Aslanov rayon sakinlərini, Mədəniyyət evinin kollektivini əlamətdar hadisə münasibətilə təbrik edib. Bildirib ki, Heydər Əliyev Fondu yarandığı gündən ölkəmizin təhsil, mədəniyyət, idman və digər sahələrində müxtəlif layihələr həyata keçirir. Qaxingiloy kəndində Mədəniyyət evinin istifadəyə verilməsi də bu layihələrin real nəticəsini göstərir: "Burada gənclərin, kənd sakinlərinin asudə vaxtlarının, mədəni istirahətlərinin səmərəli təşkili üçün müxtəlif layihələr həyata keçiriləcək. Mədəniyyət evi həm kəndin, həm də rayonun ictimai-mədəni həyatına öz töhfəsini verəcək".

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev çıxışında diqqətə çatdırıb ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə indiyədək rayonda iki məktəb binası və iki uşaq bağçası istifadəyə verilib. Qeyd edilib ki, Azərbaycanın digər rayonları kimi, Qaxda da milli azlıqların adət-ənənələrinə həmişə hörmətlə yanaşılır. Qaxda yaşayan bütün milli azlıqlara Azərbaycan dövləti tərəfindən daim xüsusi qayğı göstərilir. Yeni istifadəyə verilən Mədəniyyət evi bütövlükdə ölkəmizdə aparılan multikulturalizm və tolerantlığın qorunması, inkişaf etdirilməsi ilə bağlı siyasətin yerlərdə həyata keçirilməsinin bariz nümunəsidir.




Mədəniyyət evinin direktoru İaqo Kasiaşvili və kənd sakini Zaira Kuloşvili çıxış edərək Azərbaycanda azsaylı xalqların mədəniyyətlərinin, adət-ənənələrinin qorunmasına və inkişaf etdirilməsinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sakinlər adından minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda Qaxingiloy kənd Mədəniyyət evinin "İmedi" rəqs qrupu çıxış edib.

Qeyd edək ki, Qaxingiloy kənd Mədəniyyət evi 1965-ci ildən fəaliyyət göstərir. Mədəniyyət ocağının binası uzun illər istismarda olduğundan yararsız vəziyyətə düşmüşdü. 2020-ci ilin martında bina tamamilə sökülərək yerində yeni ikimərtəbəli bina inşa olunub. Bina mebel və avadanlıqla təchiz edilib, həyətdə abadlıq işləri aparılıb. Geniş tamaşaçı zalı və səhnəsi olan binada rəssam və heykəltəraşlıq, ansambl və ədəbiyyat dərnəkləri üçün otaqlar da var.

Mədəniyyət ocağında 1982-ci ildən "Şvitkatso" gürcü xalq xoru və 1991-ci ildən "İmedi" rəqs kollektivi fəaliyyət göstərir. Hər iki kollektiv rayon və respublika səviyyəli tədbirlərdə, həmçinin Mədəniyyət Nazirliyi tərəfindən keçirilən tədbirlərdə, festivallarda uğurla çıxış edərək diplom və fəxri fərmanlara layiq görülüb. "Şvitkatso" xoru 2021-ci ilin mayında Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalında Qax rayonunu uğurla təmsil edib.

# Xalqımıza Zəfər yaşadanlar unudulmur





Biləsuvar RMİ-nin əhatə etdiyi Cəbrayıl rayon Hovuslu kənd klubunun əməkdaşları Vətən müharibəsi şəhidi Əyyub Süleymanovun ailəsi ilə görüşüblər.

Bərdə RMİ Yevlax şəhər Heydər Əliyev Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidi Nicat Quliyevin ailəsinə baş çəkib, qayğıları ilə maraqlanıblar.

Xaçmaz RMİ Qusar rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi Malik Xeyirbəyovun əziz xatirəsinə həsr olunmuş "Bizə Zəfər yaşadanları biz yaşadaq" adlı tədbir keçirilib.

Şəki RMİ Zaqatala rayon MKS-nin Uzuntala kənd kitabxana filialının əməkdaşları tərəfindən II Qarabağ müharibəsi qazisi Səid Suriyev ziyarət edilib.

# Gənc və yeniyetmələr arasında oxu mədəniyyətinin təşviqi

Ağdaş RMİ Ağdaş rayon Mərkəzi Kitabxanası və "Cığır" Mənəvi Dəyərlərin İnkişafına Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Gənclər və yeniyetmələr arasında oxu mədəniyyətinin təşviqi" adlı layihə çərçivəsində tədbir keçirilib.



Tədbiri giriş sözü ilə Ağdaş rayon MKS-nin direktoru Seyfəddin Feyzullayev açaraq mənəvi dəyərlərin qorunmasına və inkişafına dəstək olanlara öz təşəkkürünü bildirib. Vurğulayıb ki, kitabxanaların da əsas məqsədi uşaqlarımızın həyatına yeni dəyərlər gətirmək, inkişaf edən dünyamızda onların mütaliə aləmini zənginləşdirmək, dünyagörüşünü artırmaq, daha savadlı, zəkalı böyümələrinə təkan verməkdir.

Tədbirdə həmçinin AMEA-nın Coğrafiya İnstitutunun böyük elmi işçisi Sevinc Məmiyeva, "Cığır" İB-nin sədri, filologiya üzrə fəlsəfə doktoru Yeganə Mirzəyeva və digər qonaqlar çıxış ediblər.

Sonda tədbir iştirakçıları "Hər kitab bir xəzinədir" adlı sərgi ilə tanış olublar. İctimai birlik tərəfindən uşaqlara hədiyyələr təqdim edilib.

# Soyqırımı Memorial Kompleksinə ekskursiyalar

Erməni-bolşevik quldur dəstələrinin 1918-ci ilin martında ölkəmizin müxtəlif regionlarında törətdiyi qırğınların 104-cü ildönümü münasibətilə Quba Soyqırımı Memorial Kompleksinə ekskursiyalar keçirilir.

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin S.Vurğun adına Mərkəzi Kitabxanasının Uşaq şöbəsi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Quba Soyqırımı Memorial Kompleksinə "Tarixə səyahət" adlı ekskursiya təşkil edilib. Kompleksə tanışlıqdan sonra ziyarətçilər xatirə kitabına ürək sözlərini yazıblar. Bildirilib ki, kompleksin ərazisindəki kütləvi məzarlıq erməni qəsbkarlarının iç üzünün dünyaya çatdırılması üçün tutarlı nümunədir.

Xaçmaz RMİ Xaçmaz rayon MKS-nin Qaradağlı, Palçıqoba, Ağarəhimoba, Ağyazı, Dədəli, Ləcət, Canaxır, Qusarçay, Nağıoba, Hacıqurbanoba, Susayqışlaq, Köhnə Xudat, Qadaşoba və Qımılqışlaq kənd kitabxana filiallarının əməkdaşları da Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.




**Hazırladı: N.Məmmədli**

# Azad edilmiş ərazilərdə 16 yol layihəsi icra olunur

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 16 yol layihəsi yerinə yetirilir və rayondaxili yolların tikintisi həyata keçirilir. Bu barədə jurnalistlərə açıqlamasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov bildirib.

Onun sözlərinə görə, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonları ərazilərində 780 km daxili yolların tikintisinə vəsait ayrılıb və bu sahədə işlər aparılır.

Göygöl-Toğanalı-Kəlbəcər avtomobil yolu layihəsində 11,6 kilometrlik tunelin tikintisi çərçivəsində 25% işlər yerinə yetirilib. Tunelin tikintisinin 2024-cü ilin sonunadək başa çatdırılması nəzərdə tutulub.

Bundan əlavə, 6-4 hərəkət zolaqlı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi çərçivəsində işlərin 70%-i yerinə yetirilib. Yolun tikintisinin 2023-cü ilin sonunadək bitəcəyi gözlənilir.

Sədrin sözlərinə görə, Zəngəzur dəhlizində yol infrastrukturu yaradılır, bu ilin sentyabr ayının sonuna qədər Zəngilan hava limanının tikintisinin bitməsinə uyğun olaraq Zəngəzur dəhlizi yolunun bir hissəsinin asfaltlanması da nəzərdə tutulub. Xudafərin-Laçın-Qubadlı avtomobil yolunda da işlərin 40%-i yerinə yetirilib. Agentlik bu ilin sonunadək Bərdə-Ağdam avtomobil yolunun tikintisini başa çatdırmağı planlaşdırır.



# Tarixi-dini abidələr ölkəmizdə yaşayan xalqların mənəvi dəyərlərini təcəssüm etdirir

## Dini konfessiya rəhbərləri Avropa Parlamentinin qərəzli qətnaməsinə etiraz edirlər

*əvvəli səh. 1-də*

Diqqətə çatdırılır ki, Azərbaycandakı müxtəlif etnik və dini icmaların nümayəndələri Qarabağ torpaqları işğaldan azad edildikdən sonra həmin ərazilərə səfərləri zamanı orada Ermənistan tərəfindən tarixi və mədəni abidələrə, xüsusən müsəlman məscidlərinə və mövcud olmuş infrastruktura qarşı törədilmiş vandalizmin, qədim alban xristian və pravoslav kilsələrinə qarşı qriqorianlaşdırma siyasətinin həyata keçirildiyinin canlı şahidləridir.

Qeyd olunur ki, Ermənistan ərazisindəki tarixi Azərbaycan dini abidələri, İrəvandakı "Şah Abbas", "Sərdar", "Hacı Novruz Əli" məscidləri və digər mədəni-mənəvi irs nümunələri, nadir memarlıq abidələri tamamilə dağıdılıb, İrəvanın mərkəzində yeganə salamat qalan "Göy məscid"in orada "baş verən" yanğından sonra memarlıq xüsusiyyətləri qəsdən dəyişdirilib. Ermənistan azərbaycanlılara məxsus mədəni-mənəvi irsin dağıdılması ilə bərabər, Şuşadakı "Vəftizçi Yəhya" pravoslav kilsəsini, digər bölgələrdəki qədim alban kilsələrini qəsb edib, mənşəyini dəyişdirərək qriqorianlaşdırıb, Xocavənd pravoslav kilsəsini tamamilə məhv edib.

"Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdikdən sonra erməni tərəfi bütün dünyaya aşılamağa çalışır ki, guya onlar Azərbaycan tərəfindən təcavüzə məruz qalmışlar. Əslində isə, keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konflikti qonşu ölkənin ərazisini işğal etmək məqsədilə Ermənistan tərəfindən başlanmış və onlar bu münaqişənin müsəlman-xristian qarşıdurması olması barədə həqiqətə uyğun olmayan yalanlar yayaraq, özlərini məzlum xalq kimi təqdim edir, bununla da xristian aləminin təəssübkeşliyini qazanmağa çalışır. Təəssüf ki, öz işğalçı niyyətlərini, özgə torpaqlarına ərazi iddialarını ört-basdır etmək üçün erməni təbliğatı müxtəlif vasitələrdən, o cümlədən dini amildən də fəal surətdə istifadə etməkdədir", – deyə bəyanatda daha sonra bildirilir.

Vurğulanır ki, erməni işğalı nəticəsində minlərlə tarix və mədəniyyət abidələri, kitabxanalar, mədəniyyət mərkəzləri, yaşayış binaları, məktəblər, muzeylər, sənət qalereyaları və teatrlar, ziyarətgahlar və qəbiristanlıqlar məhv edilib və talan olunub. Azərbaycanın otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış ərazilərində rəsmi qeydiyyatda olmuş 67 məsciddən 64-ü tamamilə dağıdılıb, 3-ü isə acınacaqlı vəziyyətdədir.

Bəyanatda qeyd edilir ki, mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda mövcud olan tarixi-dini abidələr bu ölkədə yaşayan xalqların milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini və adət-ənənələrini özündə təcəssüm etdirən müqəddəs məkanlardır. Bildirilir ki, Avropa Parlamentində "Dağlıq Qarabağda mədəni irsin məhv edilməsi haqqında" adlı qərəzli qətnamənin qəbul edilməsi qurumun ikili standartlara əsaslanaraq birtərəfli, ermənipərəst mövqeyə malik olması qənaətini yaradır: "Biz, Azərbaycanda erməni qəsbkarları və terrorçuları tərəfindən yüz ildən artıq müddətdə azərbaycanlılara və burada yaşayan digər millətlərin nümayəndələrinə qarşı törədilən qətliamlara, mədəni-mənəvi irsimizin dağıdılmasına siyasi-hüquqi qiymət verməyə, həqiqəti yanlışdan seçərək ədalətin yanında olmağa və bu qərəzli qətnaməni ləğv etməyə çağırırıq".

Bəyanatı Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Mobili və Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri Aleksandr Şarovski imzalayıblar.

# “Açıq qapı”dan görünənlər

## 27 mart – Dünya Teatr Gününün xoşməramlı aksiyasından bol təəssürat



əvvəli səh. 1-də

Bunu Dünya Teatr Günü münasibətilə paytaxtdakı teatrları dolaşarkən bir daha hiss etdim. Yəqin təkcə mən deyil, bu əlamətdar gün münasibətilə elan edilən “Teatrda bir gün” layihəsinin iştirakçısı olan bir çoxları da.

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Dünya Teatr Gününün ölkə miqyasında “açıq qapı” aksiyası ilə qeyd olunması (özü də pandemiyalı ikiillik fasilədən sonra) tamaşaçılar və teatr ictimaiyyəti tərəfindən maraqla qarşılanaraq, ümumilikdə teatr ovqatı, kütləvi teatr ajiotajı yarada bildi.

Teatrsevərlər bir gün də olsa. həm tamaşalara pulsuz baxmaq imkanı qazandılar, həm də səhnəarxası – kulisdən rekvizitlərədək teatrın texniki və yaradıcılıq hissəsi ilə ekskursiya formatında tanış ola bildilər.

Ümumən istirahət gününü, bayram tətili həftəsinin son fürsətini teatrla bəzəyənlər kifayət qədər idi. Əksər teatr binalarının qarşısında uzun növbə görmək, içəri girmək, teatr adlı sehrlə yenidən tanış olmaq istəyənlərin həyəcanı teatrın hər kəs üçün arzulanan məkanlar siyahısında hələ də ön sıralarda olması qənaətini möhkəmləndirdi.

Repertuarlarındakı ən yeni və maraqlı tamaşaları bu günün proqramına daxil edən və qapılarını taybatay açan sənət ocaqları sırasında Akademik Opera və Balet Teatrı da var idi. Teatrın daimi tamaşaçıları, tələbələr, məktəblilər teatrın solist-vokalçıları, balet, xor kollektivləri və simfonik orkestrin məşq prosesi, habelə texniki bölmələrin işini izlədilər. Teatr əməkdaşları qonaqlara rekvizit, kostyum və dekorasiyaların hazırlanması haqqında məlumat verdilər, Opera və Balet Teatrının tarixindən bəhs etdilər. Teatrla tanışlığın sonunda isə sənətsevərlər italyan bəstəkarı P.Maskanyinin “Kənd namusu” operasının tamaşasına baxdılar.

Layihə, təbii ki, Akademik Milli Dram Teatrını da əhatə etdi və sənət ocağı bu səmərəli təşəbbüsə öz töhfəsini verdi. Burada da teatra marağı və sevgisi olan insanlar “açıq qapı” günü fürsətindən yararlandılar və bir neçə saat ərzində teatrın fəaliyyəti ilə tanış oldular. Onlar teatrın böyük səhnəsi, eyni zamanda Abbas Mirzə Şərifzadə adına kiçik səhnəsi ilə tanış oldular, müxtəlif sexlərə baxış keçirdilər. Daha sonra isə tamaşaçı ilə dolub-daşan zal teatrın son premyerası olan “Filumena Marturano” tamaşasını izlədi.



“Açıq qapı” günündə Akademik Musiqili Teatra da böyük tamaşaçı axını vardı. Teatrsevərlər gündüz saatlarında iki seans olmaqla uşaqlar üçün “Dəcəl çəpişlər” tamaşasına baxdılar. Ardınca teatrın sexləri, qrim otaqları, məşq zalları ilə tanış oldular. Axşam seansında isə “Paris Notr-Dama ithaf”ı alqışladılar.

Akademik Rus Dram Teatrı da qapılarını tamaşaçılarının üzünə açdı. Teatrsevərlər üçün daim maraqlı repertuar və layihələr təqdim edən sənət ocağında əvvəlcə həm uşaq, həm də böyüklər üçün ekskursiya təşkil olundu. Aktyorları daim salondan alqışlayan tamaşaçılar bu dəfə özləri səhnəyə çıxdılar və o möhtəşəm hissi, bənzərsiz həyəcanı ani də olsa, yaşamağa çalışdılar. Geyim sexlərinə, səs və işıq idarəetmə otaqlarına, görkəmli teatr xadimlərinin şəxsi kolleksiyanı xatırladan qrim otaqlarına baxdılar. Dolğun günün tamaşa proqramında balacalar üçün “Nağıl qonaqlığında”, böyüklər üçün isə “Və qadın gəlirdi...” nümayiş olundu.

Hazırda əsas səhnəsi təmir-bərpada olan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı seyrçilərini Bakı Musiqi Akademiyasının Opera studiyasında toplayaraq rus klassiki A.P.Çexovun məşhur “Qağayı” pyesi əsasında eyniadlı tamaşanın premyerasını etdi. Premyeranı tanınmış ədəbiyyat, incəsənət və teatr xadimləri də izlədilər.

Dünya Teatr Gününün xoş təşəbbüsünə qoşulan Yuğ Dövlət Teatrı da müvəqqəti yerləşdiyi məkanda H.İbsenin əsəri əsasında hazırlanmış “Vəsvəsə” tamaşasını nümayiş etdirdi. Tamaşadan əvvəl teatrın direktoru, Əməkdar mədəniyyət işçisi İslam Həsənov seyrçiləri salamladı, ədəbi hissə müdiri Elçin Cəfərov və rejissor Gümrah Ömər çıxış edərək, teatrın tarixi, poetikası haqqında danışdılar.

Şuşa Dövlət Musiqili Dram Teatrı da teatralların maraqlı və yaddaqalan gün keçirmələrinə nail oldu. Qonaqlar əvvəlcə müxtəlif tamaşalardan olan səhnə geyimləri və rekvizitlərin foyedə təşkil olunan sərgisi ilə tanış oldular.



Ardınca qrim otaqlarına, geyim sexlərinə daxil oldular. Sonra isə “Danışan gəlincik” (uşaqlar üçün) və “Dəli Domrul” (böyüklər üçün) tamaşalarına baxdılar.

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı da təşəbbüsə məmnuniyyətlə qoşuldu və balaca teatrsevərlərin könlünü xoş etməyə çalışdı. Binanın önündə bir neçə saat öncədən növbə gözləyən həyəcanlı uşaqlar və onlardan heç də geri qalmayan böyüklər geyim sexləri, kuklaların hazırlandığı otaqlar, bədii-quruluş hissəsi, işıq və səs rejissorlarının pultları ilə yaxından tanış oldular, iş prosesini izlədilər. Ardınca rekvizit və kuklaların saxlandığı otaqlara, səhnə arxasına, aktyorların kuklalarla məşq etdiyi güzgülü zala daxil oldular. Anşlaqla baş tutan tamaşalar – üç seansda “Ağca və yeddi Cırtdan” və “Durna balığı” balacaların yaddaşında xoş izlər buraxa bildi.

Gününü teatrda keçirən çoxsaylı və məmnun insanlar arasında görkəmli teatrşünas, qocaman teatr xadimi ilə görüşmək istəyənlər də az deyildi. Müstəqil “Səhnə” teatrının sənətşünaslıq doktoru, professor İsrafil İsrafilovla təşkil etdiyi görüş günün ən yaddaqalan tədbirlərindən oldu.

Ölkəmizdə və onun hüdudlarından kənarda tanınan alim ustad dərsində ümumilikdə müasir teatr, onu qarşısında duran məsələlər, yaşanan çətinliklər barədə maraqlı fikirlər səsləndirdi.





Milli teatrımızın problemlərindən danışdıqca nikbinliyini qoruyan mütəxəssis maraqlı müqayisələr də apardı. Qonşu ölkələrin teatr təcrübəsi, festivalları, dövlət və müstəqil teatrlar siyasəti, ümumilikdə teatrı inkişafına sövq edən təşəbbüs və layihələr barəsində yığcam məlumatlar verdi.

***

Dünya Teatr Günündə sənət ocaqlarına kütləvi axın aksiyası bölgələrdə də müşahidə olunub.

Gəncə və Qax Dövlət Kukla teatrlarında “Teatrda bir gün” layihəsi çərçivəsində “açıq qapı” günü keçirilib.

Gəncəli balaca teatrsevərlər öncə teatrın qarşısında nağıl qəhrəmanları ilə görüşmək şansı qazanıblar. Sonra şar şou təqdim olunub. Balacalar teatrın foyesində təşkil olunmuş sərgidə müxtəlif tamaşalara çəkilmiş eskizlərlə də tanış olub, rəssam emalatxanasına, qrim və geyim otaqlarına baxıblar. Sonra Vətən müharibəsinin iştirakçısı olan teatrın baş rejissoru Şamil Məmmədli ilə görüş keçirilib. Günün sonunda isə balacalara “Novruz əhvalatları” adlı tamaşa təqdim olunub.



Qaxlı kuklasevərlər də günlərini teatrla zənginləşdiriblər. Teatrda ekskursiyanın ardınca onlara repertuardakı maraqlı və baxımlı “Qoğal” tamaşası nümayiş etdirilib.

Lənkəran Dövlət Dram Teatrında təşkil olunan tədbirlər də sənətsevərlərin ürəyincə olub. “Açıq qapı” aksiyasına qatılanlar əvvəlcə foyedə açılmış Vətən müharibəsi şəhidlərinin qəhrəmanlığını əks etdirən rəsm sərgisinə baxıb, texniki yaradıcılıq laboratoriyası, qrim otaqları ilə tanış olub, sonra Kamal Abdullanın “Casus” pyesi əsasında səhnələşdirilən tamaşanın məşqlərini izləyiblər.

Sumqayıt Dövlət Dram Teatrında şəhərdəki S.Vurğun adına Mərkəzi Kitabxananın balaca oxucuları üçün “Baxın mənə, görün məni” adlı ekskursiya təşkil edilib.

Teatrın direktor müavini, Əməkdar artist Vidadi Məmmədov sənət ocağının tarixi, vaxtilə bu teatrda çalışmış görkəmli aktyorlar haqqında məlumat verib. Qonaqlar teatrın konfrans zalı, butafor, əlbəsə sexləri, işıq rəssamının işi, qrim otaqları barədə bilgi alıblar. Sonra Nizami Gəncəvinin əsərlərinin motivləri əsasında hazırlanan Hafiz Ataxanlının müəllifi olduğu, Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi iki hissədən ibarət “Xəzinə” tarixi dramının məşqinə baxış olub.

Qusar Dövlət Ləzgi Dram Teatrı yerli sənətsevərləri yaradıcı iş prosesi ilə tanış edib. Foyedə səhnə geyimləri, dekorasiyalar, tamaşalara çəkilən eskizlərlə tanışlıq imkanı yaradılıb. Ardınca “Tıq-tıq xanım” tamaşası nümayiş olunub.

Teatra verilən təyin-təriflər arasında ən xoşuma gələni başdan-başa ümid və inam olan “Teatr kütləni xalqa çevirə bilən qüvvədir” sözləridir. Bunu 27 mart gününü teatr binaları arasında qalan çoxluqda itib-batan adam kimi görmək xoşbəxtlikdirsə, deməli, teatr daim yaşayacaq və yaşadacaq. Ən azı yüksək sənət arzusu ilə yaşamaq istəyənləri...

**Həmidə Nizamiqızı**




# Mərkəzi İncəsənət Məktəbinin direktoru Budapeştdə festivalın fəxri qonağı olub

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin (MİM) direktoru, Əməkdar artist, dosent Əziz Qarayusifli Macarıstanın paytaxtı Budapeştdə keçirilən ənənəvi "Bach Mindenkinek" ("Hər kəs üçün Bax") festivalında fəxri qonaq kimi iştirak edib.

Bu il səkkizincisi keçirilən festivalın məqsədi böyük alman bəstəkarı Yohann Sebastyan Baxın (1685-1750) musiqisinin Budapeştdə və onun hüdudlarından kənarda daha çox insana çatdırılması, eləcə də mədəniyyətin və birliyin nümayiş etdirilməsidir.

Festivalın açılışında polislərin xor kollektivi, uşaq xoru və solistlər maraqlı proqramla çıxış ediblər.

Ə.Qarayusifli səfər çərçivəsində Bocskai İstvan İslahatlar Təhsili Mərkəzinin yeni korpusunun açılışına da qatılıb. Açılış tədbirində uşaq nəfəs alətləri orkestri çıxış edib. Ə.Qarayusifli MİM adından mərkəzə hədiyyə təqdim edib və təbriklərini çatdırıb.

MİM-in direktoru həmçinin yenidən bərpa edilmiş Macarıstan Dövlət Opera Teatrında olub, bu ölkənin müasir akustika və avadanlıqlardan ibarət Musiqi Mərkəzinin binasının açılışında da iştirak edib.

# Bakı Xoreoqrafiya Akademiyasının əməkdaşları Qazaxıstana səfər ediblər

Bakı Xoreoqrafiya Akademiyası (BXA) Tədris şöbəsinin müdiri, dosent Yeganə Tapdıqova və Baletmeyster sənəti kafedrasının müdiri, professor Lyudmila Həsənova Qazaxıstan Milli Xoreoqrafiya Akademiyasının (QMXA) tələbələri ilə Nur-Sultan şəhərində səfərdə olublar. Səfər çərçivəsində BXA əməkdaşları Respublika fənn olimpiadası və Mintay Tleubayevin 75 illiyinə həsr olunmuş Gənc xoreoqrafların IV müsabiqəsində fəxri qonaq qismində iştirak ediblər.

Səfərin ilk günü QMXA-nın prorektoru Bibigül Nusipjanova ilə görüş keçirilib. Görüş zamanı BXA və QMXA arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb. Bildirilib ki, BXA bir sıra ölkələrin ali təhsil müəssisələri ilə ikitərəfli və çoxtərəfli formatda müqavilələr imzalayıb, eyni zamanda əməkdaşlıq əlaqələrini genişləndirir.

BXA əməkdaşlarının fəxri qonaq qismində iştirak etdikləri Gənc xoreoqrafların IV müsabiqəsində Qazaxıstanın sənət təhsili verən ali məktəblərinin, o cümlədən T.Jurgenov adına Qazaxıstan Milli İncəsənət Akademiyasının, Qazaxıstan Milli Qadın Pedaqoji Universitetinin, Qazaxıstan Milli Xoreoqrafiya Akademiyasının tələbələrindən ibarət komandalar iştirak ediblər.



Qeyd edək ki, Bakı Xoreoqrafiya Akademiyası və Qazaxıstan Milli Xoreoqrafiya Akademiyası arasında 2016-cı ildən qarşılıqlı əməkdaşlıq müqaviləsi mövcuddur.

# “İnteract Film Lab” tədris layihəsi həyata keçiriləcək

Mədəniyyət Nazirliyinin dəstəyi, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası və "Debüt" Film Studiyasının birgə təşkilatçılığı ilə "İnteract Film Lab" adlı yeni layihəyə başlanılır.

Altıaylıq tədris proqramını əhatə edən layihədə kinematoqrafiyanın müxtəlif istiqamətləri – rejissorluq, ssenari yaradıcılığı, prodüserlik, təsvir rejissorluğu və quruluşçu rəssamlıq ixtisasları üzrə aparıcı xarici mütəxəssislər tərəfindən intensiv təlimlər keçiriləcək.

Tədris laboratoriyası funksiyasını həyata keçirəcək “İnteract Film Lab” layihəsinin məqsədi yerli kino sənayesində insan kapitalının artırılmasına töhfə verməkdir.

Ssenari yaradıcılığı və rejissorluq ixtisası üzrə “Netflix” istehsalı “Anna K” serialının rejissoru və Venesiya Film Festivalının əsas müsabiqəsində “Kapitan Volkonoqov qaçdı” filmi ilə iştirak edən Nataşa Merkulova və həmin ekran işlərinin rejissor və ssenari həmmüəllifi Aleksey Çupov öz tədris proqramları ilə çıxış edəcəklər.

Venesiya (“Təqribən yazdır”) və Kann kinofestivallarında (“Axşama doğru”, “Kalendar”) iştirak etmiş Yevgeni Rodin təsvir rejissoru ixtisasını nəzəri və praktiki şəkildə tədris edəcək.

Quruluşçu rəssamlıq ixtisası üzrə yerli istehsal “Həyat, deyəsən, gözəldir” filminin quruluşçu rəssamı, o cümlədən Berlin (“Susa”) və Lokarno film festivallarının (“Ata”) iştirakçısı olmuş rəssam Quram Navrozaşvili, Nyu-York Film Akademiyasında icraçı prodüser ixtisası üzrə akademik təhsil almış, eyni zamanda Ukrayna Film Məktəbinin sabiq icraçı direktoru Valeriya Lebid də peşəkarlar sırasında olacaq.

Layihədə iştirak müsabiqə əsasında keçirilir və ödənişsizdir. Layihə ilə bağlı ətraflı məlumat və müsabiqəyə qoşulmaq üçün debutfilms.az veb-saytında müraciət formasını doldurmaq mümkündür. İştirak etmək istəyənlər aprelin 5-dək qeydiyyatdan keçməlidirlər.

Xatırladaq ki, 2020-2021-ci illərdə Mədəniyyət Nazirliyinin dəstəyi və “Debüt” Film Studiyasının təşkilatçılığı ilə “İnteract Lab” tədris layihəsi çərçivəsində “İnteract Online” proqramı həyata keçirilib. Elektron platforma gənc kinematoqrafçılara tanınmış beynəlxalq peşəkarlarla onlayn master-klaslar və vorkşoplar vasitəsilə məlumat mübadiləsi imkanını təklif edib.

**Lalə Azəri**

Yusif Vəliyev – 105

# Səsi də obrazlaşırdı...

Səhnə və ekran personajlarının xarakterik cizgilərini özünəməxsus şəkildə təqdim edən sənətkarlarımızdan biri də Xalq artisti Yusif Vəliyev olub. Görkəmli aktyor dramatik-psixoloji rolların bənzərsiz ifaçısı kimi yaddaşlarda dərin iz buraxıb. Sənətkarı anadan olmasının 105-ci ildönümü münasibətilə yada salırıq.





Yusif Abdulla oğlu Vəliyev 22 mart 1917-ci ildə Dərbənd şəhərində dünyaya göz açıb. Orta məktəbi bitirib 1933-cü ildə Azərbaycana gələn Yusif Bakı Teatr Texnikumuna qəbul olunur. Tələbələr arasında qeyri-adi səhnə danışığı, aydın diksiyası ilə diqqəti çəkir. Ona görə də hələ tələbə ikən Azərbaycan Dövlət Dram Teatrının tamaşalarında kütləvi səhnələrə, sözsüz rollara dəvət olunur. O, eyni zamanda 1934-1939-cu illərdə Bakıda fəaliyyət göstərmiş Yəhudi Dövlət Dram Teatrında çıxış edib. Araşdırmalarda qeyd edilir ki, gənc aktyor yəhudi dilini bilməsə də, sözləri əzbərləyib və diqqətə çatdırıb.

Yusif Vəliyev texnikum təhsilini başa vurduqdan sonra təyinatla yenicə açılan Mirzə Ələkbər Sabir adına Nuxa (Şəki) Dövlət Dram Teatrında işə başlayır. 1949-cu ilədək bu kollektivdə çalışır. Qısa zaman kəsiyində kollektivin və tamaşaçıların rəğbətini qazanır. O, Şəki səhnəsində N.Vəzirovun "Hacı Qəmbər" (Əşrəf bəy), "Müsibəti-Fəxrəddin" (Fəxrəddin), M.F.Axundzadənin "Hacı Qara" (Hacı Qara), "Molla İbrahimxəlil kimyagər" (İbrahimxəlil), S.Rəhmanın "Toy" (Surxay), "Xoşbəxtlər" (Sadıq), eləcə də C.Cabbarlının "Almaz" (Şərif), "1905-ci ildə" (General-qubernator), "Aydın" (Aydın), "Oqtay Eloğlu" (Oqtay), "Od gəlini" (Elxan), "Sevil" (Balaş), "Solğun çiçəklər" (Bəhram), S.Vurğunun "Vaqif" (Vaqif), Mirzə İbrahimovun "Həyat" (Süleyman), V.Şekspirin "Otello" (Yaqo), Ə.Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad) pyeslərinin tamaşalarında səhnəyə çıxır. Aktyor eyni zamanda opera və operettalarda da rol alıb. Şəki teatrında Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında İbn Salam, "Arşın mal alan", "O olmasın, bu olsun" və "Ər və arvad" operettalarında Vəli, Həsən bəy və Həsənqulu bəy, Mərcan bəy, A.Məşədibəyovun "Toy kimindir?" musiqili komediyasında Qoşun rollarında çıxış edib.

Artıq səhnədə özünü təsdiq edən Yusif Vəliyev 1949-cu ildə Bakıya gəlir. Əvvəl Rus Dram Teatrında işə düzəlir. Burada qısa müddət fəaliyyət göstərdikdən sonra Gənc Tamaşaçılar Teatrına dəyişilir. Teatrda bir-birindən maraqlı, sənətkarlıq baxımından kamil fəlsəfi-psixoloji, dramatik və romantik rollara həyat verir.

Yusif Vəliyevin səhnə uğurları kimi kino yaradıcılığı da diqqətəlayiqdir. Aktyorun dublyaj fəaliyyəti çox maraqla qarşılanıb. Aydın tələffüzü, amiranə səs tembri sayəsində 30-dan artıq filmdə personajları maraqla səsləndirib. Aktyorun kinoda çəkildiyi rollar say baxımından çox olmasa da, bəzən həmin rolların bir epizodda görünməsi belə bədii dəyəri ilə seçilib. Daha doğrusu, obrazı yaddaqalan edərək sənət hadisəsinə çevirib. Buna görə də kino və dublyaj rejissorları Yusif Vəliyevin səsindən daha çox bəhrələniblər.

Bayandır xan ("Dədə Qorqud"), Kərbalayı İsmayıl ("Axırıncı aşırım"), Şirin kişi ("Əhməd haradadır?"), Piri baba ("Qaraca qız"), Məstəli şah ("Dərviş Parisi partladır"), Yarməmməd ("Böyük dayaq"), Sərxan ("Dağlarda döyüş"), Veselinin atası ("Uzaq sahillərdə") və s. obrazlar məhz onun səsi ilə tamaşaçı qəlbinə yol tapıb. Fəraməz ("Zirvə"), Balıqçı ("Sən nə üçün yaşayırsan?"), Şirməmməd ("Sən niyə susursan?"), Səfərəli ("Bir cənub şəhərində"), Fəttah ("Arxadan vurulan zərbə"), Halvaçı ("Qatır Məmməd"), Teymurləng ("Nəsimi"), Qılınc Qurban ("Tütək səsi") isə görkəmli sənətkarın kinoda yaratdığı parlaq obrazlardır.

Teatr və kino sənəti sahəsində yaratdığı zəngin irsə görə Yusif Vəliyevin əməyi yüksək qiymətləndirilir. 1960-cı ildə "Əməkdar artist", 1979-cu ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülür.

Araşdırmalarda o da qeyd edilir ki, "Nəsimi" (1973) filminin sınaq çəkilişlərində bir neçə aktyor iştirak edir. Filmin quruluşçu rejissoru Həsən Seyidbəyli hər rola uyğun aktyor seçimində çox tələbkar olur. Xüsusilə Əmir Teymur və Nəsimi rolları ilə bağlı Bədii Şura ilə o qədər də hesablaşmır. Sonda Teymurləng roluna Yusif Vəliyev, Nəsimi roluna isə gənc aktyor Rasim Balayevin çəkilməsi təsdiqlənir. Çəkiliş vaxtı maraqlı məqamlar da yaşanır. Nəsimi ilə Teymurləngin qarşılaşdığı səhnədə rejissor H.Seyidbəyli hiss edir ki, Teymurləng daha güclü alınır. Yəni Yusif Vəliyev sənətkar qüdrəti ilə gənc aktyor Rasim Balayevi – Nəsimini zəif salır. Rejissor fasilədə Y.Vəliyevi kənara çəkir və deyir: "Yusif, nəzərə al ki, biz "Nəsimi" filmini çəkirik, "Əmir Teymur"u yox".

Yusif Vəliyev deyərmiş ki, "Mən hər oynadığım obrazla yeni söz deyə bilərəm". Teymurləng rolu ilə kinosevərlərin rəğbətini qazanan aktyor 1975-ci ildə "Tütək səsi" filmində yaratdığı Qılınc Qurban obrazı ilə bu fikrini təsdiqləyir. Görkəmli sənətkara filmin nümayişindən sonra iradlar tutulur. Deyirlər ki, Qılınc Qurbanı çox sərt oynamısan. O, iradlara cavab olaraq deyib: "Mənə elə gəlir ki, belə sərt olmasaydım, obrazı yarada bilməzdim. Çünki o dövr özü sərt olub. Nahaq yerə o kişinin adına Qılınc Qurban demirdilər ki...".

Fərqli xarakteri, bənzərsiz sənətkarlığı ilə tanınan və tamaşaçı qəlbində heykəlləşən Xalq artisti Yusif Vəliyev 18 mart 1980-ci ildə vəfat edib. Bakıda "Qurd qapısı" qəbiristanlığında dəfn olunub.

**S.Fərəcov**

# Rollarda yaşanan aktyor ömrü

Son illər sənət fədaisi olan hər hansı aktyor haqqında söz açmaq istədikdə onların səhnə obrazlarının cizgiləri hər zaman gözlərim önündə dayanır. Onun haqqında yazmaq qərarına gəldikdə isə daxilimdə bir narahatlıq hissi yarandığından tərəddüd edirdim. Bu narahatlığın isə bir səbəbi vardı. Haqqında yazmaq istədiyim aktyorun Gəncə Dövlət Dram Teatrının səhnəsində yaratmış olduğu obrazların ümumi təhlili və xarakterik cizgilərini dolğun şəkildə oxucularımla bölüşə bilməməkdən yaranan narahatlıq...

İlk öncə qeyd etməliyəm ki, o, tipik, xarakterik rollar ifaçısı olaraq bir qədər romantikaya meyilli, realist yaradıcılıq üslublu sənət məktəbini keçmiş aktyorlarımızdandır. Yaşasaydı, bu il 70 illiyini qeyd edəcəkdi – Əməkdar artist Əlican Əzizov. Mərhum sənətkarı yubileyi ilə əlaqədar yada salaq.

Əlican Süleyman oğlu Əzizov 23 fevral 1952-ci ildə Özbəkistanın Fərqanə vilayətinin Vadil rayonunda anadan olub. Əslən Ahısxa türkü olan Əlican Əzizovun ailəsi və soydaşları 1944-cü ilin noyabr ayında Stalinin əmri ilə ellikla Gürcüstandan Orta Asiyaya sürgün olunub.

1959-cu ildə Əlicanın ailəsi Azərbaycana köçüb və o, orta təhsilini Gəncədə alıb. Bacısı Nərminə Əzizova uşaqlıq illərini xatırlayarkən qardaşı haqqında deyir: "Biz ailədə yeddi uşaq olmuşuq. Atamızı bədbəxt hadisə nəticəsində çox erkən itirmişik. Anamız Xeyriyyə xanım bizi min bir əziyyətlə böyüdüb, özü təhsilsiz olsa da, ailədə hər birimizin ali təhsil alması üçün çox əziyyət çəkib. Əlican evin ikinci uşağı olub. O, çox kiçik yaşlarından böyük qardaşımla bərabər ailənin qayğısını çəkib, işləyib, pul qazanıb. Hələ tələbə olarkən axşamlar Opera və Balet Teatrında işləyib, aldığı əməkhaqqını isə dolanışığımız üçün bizə, Gəncəyə göndərib. Qardaşım həmişə təhsilimizlə maraqlanıb, bizi daha yaxşı oxumağa həvəsləndirib. Bizdə ədəbiyyata, şeirə, incəsənətə maraq və məhəbbət məhz onun sayəsində yaranıb. Mən orta məktəbdə oxuyarkən ədəbiyyat dərsində keçdiyimiz əsərləri onunla səhnələşdirərək əlamətdar tədbirlərdə çıxışlar edərdik. Ədəbiyyat müəllimimiz bu işə kömək etmək üçün həmişə Əlicana müraciət edərdi. O da məmnuniyyətlə gələr və məzunu olduğu orta məktəbin hər bir işində kömək göstərərdi. Fərəhim, güvən yerim olan əziz qardaşım haqda heç vaxt keçmiş zamanda danışmaq istəmirəm...".

Sənətkarın digər bacısı Səkinə Əzizova deyir ki, orta məktəbdə oxuyarkən inşa yazılarımıza, ifadəli şeir söyləməmizə hər zaman Əlican kömək edərdi: "O, böyüklə böyük, kiçiklə kiçik kimi rəftar edən, hər kəslə ünsiyyət qura bilən insan idi. Onun həm də səlis nitqi, gözəl qiraəti vardı. Uşaqlıqda babam bizə növbə ilə xalq dastanlarını, nağılları oxutduranda intizarla məhz Əlicanın oxumağını gözləyər, hamı kimi mən də maraqla dinləyərdim. Gözəl yaz günlərində pəncərədən boylanarkən küçədə futbol oynayan oğlan uşaqlarına, bir də çarpayıda uzanıb kitab oxuyan qardaşım Əlicana baxıb öz-özümə nə üçün onun da oynamağa getmədiyinə təəccüblənərdim. Bunun səbəbini sonralar başa düşdüm. Onda kitab oxumağa o qədər maraq vardı ki, cibindəki son qəpiyini belə kitaba, jurnala verərdi. Buna görə də 70-ci illərdə evimiz kitabxanani xatırladardı...".



***

Əlican Əzizov 1971-1975-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyoru fakültəsində təhsil alıb. 1975-1998-ci illərdə Gəncə Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərib. Həmçinin paralel olaraq 2008-ci ilədək Gəncə Dövlət Nizami Poeziya Teatrında yaradıcılıq fəaliyyətini davam etdirib. 2008-ci ildən isə bir müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olub. O, 1978-ci ildə "Yaradıcı gənclərə baxış" müsabiqəsinin qalibi, 1985-ci ildə isə respublikada "Ən yaxşı kişi rolunun ifaçısı" kimi tanınıb. 2000-ci ildə "Əməkdar artist" fəxri adına, 2006-cı ildə isə Prezident mükafatına layiq görülüb.

Aktyorun Gəncə Dövlət Dram Teatrında yaratdığı A.Şaiqin "Gözəl bahar"ında Külək, C. Cabbarlının "1905-ci ildə" əsərində Volodin, "Almaz"da Prokuror, H.Cavidin "Maral"ında Arslan bəy, S.Vurğunun "Vaqif"ində Vidadi, "Fərhad və Şirin"ində Azər baba kimi obrazları maraqla qarşılanıb. O, həmçinin Z.Xəlilin "Şairin yuxusu"nda Xaqani, B.Vahabzadənin "Yağışdan sonra"sında Rüstəm, M.İbrahimovun "Həyat"ında Akif, Y.Əzimzadənin "Anacan" əsərində Komissar, A.Məmmədovun "Ulduzlar görüşəndə" əsərində Mövlanə Cəmaləddin, "Bəraət"ində Temraz, İ.Şıxlının "Dəli Kür"ündə Çernyayevski, N.Həsənzadənin "Atabəylər"ində Atabəy Qızıl Arslan, Ə.Hacızadənin "İtkin gəlin"ində Yusif, İ.Əfəndiyev "Üçatılan"ında Alış və digər əsərlərdə yaddaqalan obrazlara həyat verib.

Əlican Əzizov dramatik xarakterli səsi, coşqun daxili temperamenti ilə hər zaman səhnədə mürəkkəb və psixoloji rollara əzəmətli monumentallıq verə bilirdi. Aktyor yaratdığı obrazlara emosional və lirik-psixoloji ovqat bəxş etməklə tamaşaçılara ülviyyət aşılamağı bacarırdı. O, bu zaman kəsiyində dəyişmə prosesində səsinin çalarlarından dəqiqliklə istifadə edirdi.



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar artist Xəzər Gəncəli aktyor haqqında deyir: "Mən Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rejissorluq fakültəsinə 1973-cü ildə daxil olanda Əlican Əzizov iki il idi ki, Dram və kino aktyoru fakültəsində təhsil alırdı. Bildiyiniz kimi, Səməd Vurğunun "İnsan" pyesi müəllifin sağlığında, həm də onun haqq dünyasına qovuşmasından sonra bir neçə dəfə tamaşaya qoyulub. 1973-cü ildə isə bu pyesə yenidən görkəmli rejissorumuz, Xalq artisti Mehdi Məmmədov Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsində müraciət etdi. Rejissor assistenti olan Ədalət Ziyadxanov institutun tələbələri Fikrət Quliyev, Aslan Sultanov, Elmira Məlikova, Ramiz Hüseynov, Pərviz Məmmədov, Hüseynağa Atakişiyev, Ağalar İdrisoğlu, Cahangir Novruzov və Əlican Əzizovu da bu tamaşada kütləvi səhnələrə məşqlərə cəlb etdi. Əlican Əzizovla ilk tanışlığım məhz bu məşq proseslərindən başladı. O, həddən artıq təvazökar, səmimi və çox istedadlı bir gənc idi. Birinci kurs tələbələrinə xüsusi qayğı ilə yanaşaraq öz diqqətini əsirgəmir, kütləvi səhnələrdə mövcud vəziyyətlərə uyğun hərəkətlərimizin rejissor traktovkasına uyğun olması üçün tövsiyələrini bildirərdi. Onun istiqanlılığını və insani keyfiyyətlərini heç zaman unuda bilmərəm".

Aktyor xarici müəlliflərdən O.Kamalın "Yad qızı"ında Məhzər bəy, "72-ci kamera"da Kapitan, V.Şukşinin "Diribaş adamlar"ında Adi adam, V.Şekspirin "III Riçard"ında Hersoq Bekingem, M.Kərimin "Odu atma, Prometey!" əsərində Əcəmşah, Sofoklun "Antiqona"sında Birinci qasid, M.Şatrovun "İnqilabi etüd"ündə Dolqov, R.Tomanın "Tələ"sində Komissar və başqa obrazlarda da səhnə məharəti göstərib. Bu obrazlarda aktyorun özünəməxsus cəhətlərindən biri də hadisələrin yüksək psixoloji-dramatik məqamlarında daxili ehtirasını səfərbər etməsi ilə qəhrəmanlarının mənəvi gərginliyini sifət cizgilərində qabarıq formada canlandıraraq mürəkkəb vəziyyətləri mənalı pauzalarla dolğunlaşdırması idi. Əlican Əzizov məhz səhnə əsərinin məzmunundan çıxış edərək obrazın fəlsəfi-psixoloji mahiyyətinə uyğun, tamaşanın janrı ilə həmahəng səsləşən forma qurmağı səhnədə ustalıqla bacarırdı.

***

Əlican Əzizov həmçinin Gəncə Dövlət Nizami Poeziya Teatrının səhnəsində də maraqlı obrazları ilə diqqət mərkəzində olmağı bacarıb. Belə ki, A.Murovdağlının "Şeyx Şamil"ində İmam Şamil, A.Babayevin "Məmarın məhəbbəti"ndə Aparıcı və Qızıl Arslan, Z.Xəlilin "Gəncə qartalı"nda Axsitan, B.Vahabzadənin "Şəbi-hicran"ında Füzuli, S.Vurğunun "Fərhad və Şirin"ində Xosrov, N.Gəncəvinin əsərləri əsasında "Sevgi dastanı"ında Fərhad, "Ədalət sorağında" əsərində İsgəndər, "Xəmsə"də Fərhad obrazları maraqla qarşılanıb. Aktyor həmçinin bu teatrın səhnəsində yaradıcılıq imkanlarını rejissor kimi də sınayaraq bir neçə əsərə quruluş verib.

Əlican Əzizov səhnə fəaliyyəti ilə yanaşı kinoda da çəkilib. "Azərbaycanfilm"in istehsalı olan "Süd dişinin ağrısı" (1987), "Dairə" (1989), "Şahid qız" (1990), "Aşiqlər" (2008), "Cavad xan" (2009), "Fədakar" (2015) filmlərində maraqlı obrazları ilə yaddaşlarda iz qoyub.

Əməkdar artist Əlican Əzizov 9 fevral 2021-ci ildə, 68 yaşında Türkiyənin Bursa şəhərində vəfat edib, Hamitlər qəbiristanlığında torpağa tapşırılıb.

**Anar Burcəliyev**
**teatrşünas-tənqidçi**

# 1918-ci ilin Quba soyqırımının izləri tarixi abidələrdə də qalmaqdadır



1918-ci ilin yazında S.Şaumyanın başçılıq etdiyi Bakı Kommunasının bolşevik hökuməti qurmaq adı altında Bakıda, eləcə də Azərbaycanın bölgələrində həyata keçirdiyi kütləvi qırğınların ən acı səhifələrindən biri Qubada törədilən soyqırımıdır. Arxiv materiallarından məlum olur ki, erməni-daşnak hərbi birləşmələri tərəfindən 1918-ci ildə Quba qəzasında ümumilikdə 16 min dinc sakin qətlə yetirilmiş, təkcə Quba şəhərində 3 minə yaxın sakin öldürülmüşdü. Qəzada 167 kənd talan edilmiş, 2750-dən çox ev yandırılmış, 26 məscid və tarixi abidə dağıdılmışdı. Həmin tarixi məkanlarda indiyədək bu vandalizmin nişanələri qalmaqdadır.

Quba şəhərinin mərkəzində yerləşən Hündür günbəzli hamam belə memarlıq abidələrindəndir. XIX əsrdə inşa edilən hamam el arasında Usta Bəkir hamamı, Çuxur hamam da adlanır. Erməni-daşnak hərbi birləşmələri mayın 1-də Qubaya hücum çəkərkən əsasən qocalardan, qadın və uşaqlardan ibarət yüzədək sakin qaçıb bu hamamda gizlənir. Daşnaklara bələdçilik edən yerli erməni, dəyirmançı Hartün bundan xəbər tutur. Hamazaspın quldur dəstəsini buraya gətirir. Erməni quldurlar möhkəm bağlanmış qapını aça bilməsələr də, hamamın günbəzində olan havalandırma yerini dağıdaraq içəri soxulurlar. İçəridə gizlənən sakinləra amansız divan tutulur. İnsanları qızmar buxarda boğurlar. Meyitləri isə şəhərin yuxarı hissəsində, Qudyalçayın yaxınlığındakı su arxlarına kütləvi şəkildə doldurub üzərini torpaqla örtürlər. Dəhşətli hadisədən 89 il sonra, 2007-ci ilin aprel ayında həmin ərazidə kütləvi məzarlıq aşkarlanır. Təkcə bu kütləvi məzarlıqdan 400-dək insan cəsədinin qalıqları tapılmışdı...

Erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdiyi qırğınların dünya ictimaiyyətinə çatdırılması, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2009-cu il tarixli sərəncamına əsasən, Quba Soyqırımı Memorial Kompleksi yaradıldı. Memorial kompleks 2013-cü ildə ziyarətçilər üçün açıldı.

1918-ci il may ayının 1-dən 9-dək Quba şəhərində misli görünməyən qətliamlar törədən erməni quldur Qusar istiqamətindəki kəndlərə doğru da hücuma keçir. İnsanları qətlə yetirməklə gözü doymayan erməni quldurları tarixi abidələrə də ciddi ziyan vurur. Qubanın qədim yaşayış məskənlərindən biri olan Alpan kəndindəki XVI əsrə aid Subaba türbəsi də erməni təcavüzünə məruz qalan memarlıq nümunəsidir. Türbə Səfəvilərin hökmranlığı dövründə Şah İsmayıl Xətainin qoşununun Dərbənd yürüşü zamanı bu ərazidən keçərkən vəfat etmiş sərkərdələrdən olan Sufi Mikayılın məzarı üzərində inşa olunub. Alpana hücum edən ermənilər olduqca unikal memarlıq quruluşuna malik bu abidənin damörtüyünü, divarlarını uçurmuşlar. Dağıdılmış türbənin ətrafında qədim qəbiristanlıq yerləşir. Erməni quldur dəstələrinin açdığı atəşlərin izləri də həmin daşların üzərində qalmaqdadır.

1918-ci ilin mayında Qusar istiqamətində irəliləmək istəyən erməni quldur dəstələrinin qarşısı alınır. Ə.Zizikskinin, Möhübəli Əfəndinin və digər xalq qəhrəmanlarının rəhbərlik etdiyi yerli özünümüdafiə dəstələri ermənilərə qarşı əks-hücuma keçir. Digah kəndi yaxınlığındakı dərədə ermənilər pusquya düşür və böyük itki verərək qaçmağa məcbur olurlar. Həmin ərazi indi də "Qanlı dərə" adlanır...

Tarix təkrarlanır. Bunu Birinci Qarabağ müharibəsində erməni silahlı dəstələrinin dinc azərbaycanlı əhaliyə qarşı törətdikləri qırğınlarda, Xocalı soyqırımında da gördük. 2020-ci ildə İkinci Qarabağ savaşında ermənilər yenidən dinc əhalini hədəf aldı. Lakin bu dəfə Ali Baş Komandan İlham Əliyevin qətiyyətli iradəsi, müzəffər Azərbaycan Ordusunun rəşadəti sayəsində düşmənə layiqli cavab verildi. 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımızı işğaldan azad edən Ordumuz tarixi Zəfər qazanmaqla ermənilərin mənfur niyyətlərinə son qoydu.

**Ramiz Ramazanlı**
**B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin direktoru**

№23-24 (1897)
30 mart 2022
www.medeniyyet.az



# “Həmişə sevinmişəm ki, mənim də kinoda əməyim var”

## Rafis İsmayılov: “Rəssamsız filmin koloritini qurmaq mümkün deyil”

Dünya bir nağıldır deyirik. Yaşanan həyat hekayələrini vizual olaraq bizlərə təqdim edən isə kinodur. Kinematoqrafiyanı ərsəyə gətirən vacib peşə sahiblərindən biri də kino rəssamlarıdır. Ekran əsərlərində obrazlılığı, emosionallığı göstərmək, mövzunun xarakterlərlə olan vəhdətini yaratmaq, kompozisiya qurmaq bilavasitə rəssamın üzərinə düşür. Ümumiyyətlə, filmin ilkin komponentləri rəssamın təfəkküründən yaranır. Kompozisiya qurmaq, kadrlara kolorit gətirmək, işıq-kölgə effektini müəyyən etmək çəkiliş prosesində rejissorlara istiqamət verir.



C.Cabbarlı adına “Azərbaycanfilm” Kinostudiyasında istehsal olunan 40-a yaxın ekran əsərində çalışmış Xalq rəssamı Rafis İsmayılov da fərdi yaradıcılıq üslubunu əks etdirən, istedad və bacarığını təsdiqləyən dekorativ təsvirlər, natura planları sayəsində filmlərin məna dəyərini, məzmun-mahiyyətini artırıb, baxımlı edib. Bir neçə animasiya filminə, dünya ədəbiyyatında tanınan yazıçıların kitablarına illüstrasiyalar çəkən, Akademik Milli Dram Teatrında 8 tamaşaya, Akademik Opera və Balet Teatrında 6 səhnə işinə dekorasiyalar hazırlayan, həmçinin miniatür sənəti ilə də məşğul olan istedadlı rəssamın martın 30-da 83 yaşı tamam olur.

Ömrünün bu çağında yaradıcılıqdan yorulmayan, zəngin həyat fəlsəfəsini, fikir və duyğularını əsərlərində əks etdirən Rafis İsmayılova təbriklərimizi çatdırırıq. Özünün və kino həmkarlarının dilindən rəssamın filmdəki roluna bir daha nəzər saldıq.

– *Rafis müəllim, yeni yaşınız mübarək, ömrünüzün 84-cü ili uğurlarınıza uğur qatsın.*

– Təşəkkür edirəm.

– *Uğur mənbəyinizdən biri də kinodur. Gəlin, rəssamın kinodakı rolundan danışaq...*

– Kino ssenaridən başlayır. Ssenari maraqlı olanda rejissor ilk növbədə rəssamla operatoru çağırır. Rəssam birinci tamaşaçıdır ki, ssenarini oxuya-oxuya hadisələri göz önündə canlandırır. O, hər hansı bir dövrü sənətində emosional şəkildə elə təsvir etməlidir ki, ssenaridə göstərilən atmosferi yaratsın. Sonra dekor tikiləndə, natura çəkilişləri reallaşanda kadrlar inandırıcı olsun. Filmin təsirli, inandırıcı olması üçün rəssamın dünyagörüşünün zənginliyi, bilgisinin çoxluğu tələb olunur.



– *“Yenilməz batalyon” filmində rəssam assistenti kimi çalışmısınız. İlk yaradıcılıq işi kimi tarixi filmdə çalışmaq çətin olmadı?*

– Kinostudiyaya 1964-cü ildə gəlmişəm. Şadam ki, bu filmdə görkəmli kinorejissor Hüseyn Seyidzadə və kino rəssamı Nadir Zeynalovla birgə çalışmışam. İstedadlı rəssam Nadir Zeynalovu müəllimim hesab edirəm. Çünki ilk dəfə filmdəki hadisələrin təsvirinə rəssam kimi quruluş verməyi ondan öyrənmişəm. Sonra 1966-cı ildə Moskvaya getdim, 1972-ci ilə qədər Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rəssamlıq fakültəsində təhsil aldım. Kinodakı fəaliyyətim boyunca görkəmli rejissorlarla, məşhur aktyorlarla çalışmışam. İştirak etdiyim filmlər ekranlara çıxanda həmişə sevinmişəm ki, mənim də kinoda əməyim var.





Rəssamın kinoda rolu haqqında – həmkarları nə deyir?

Əməkdar mədəniyyət işçisi, film direktoru **Nadir Əliyev**: “Kino rəssamı çəkiliş qrupunda ən vacib insandır. O, eskizləri ilə çəkiləcək filmin təsvirini verir. Rafis müəllim öz işinə çox incəliklə yanaşır, çəkiliş meydançasının tərtibi ilə məşğul olur. Onunla çox filmdə işləmişəm, həmişə də zövq almışam. “Təhminə” filmində bəzi məkan çəkilişləri kinostudiyanın pavilyonunda aparılırdı. Rafis müəllim dekorasiya üzərində çox diqqətlə işləyirdi. Film ekranlara çıxdıqdan sonra tamaşaçılar mənə yaxınlaşıb məkanları harada çəkdiyimizi soruşurdular. Deyirdim pavilyonda çəkilib. Detalların və dekorasiyaların dəqiqliyinə görə mənə inanmırdılar.

Onu da qeyd edim ki, Rafis müəllim Azərbaycan tarixini çox gözəl bilir. Bu bilgi ona tarixi janrlı filmlərdə çalışmasına xüsusi olaraq kömək edir. Kino həyatın inikası olduğu üçün hər bir kadr dəqiq olmalıdır. Tamaşaçılar içərisində alim, tarixçi və müxtəlif peşə sahibləri var. Yanlışlığa yol vermək filmin uğuruna kölgə sala bilər. Buna görə də birinci növbədə rəssam təsvir olunan hadisələrin eskizlərini dəqiqliklə təqdim etməlidir. Rafis İsmayılov da məhz bu kimi meyarları əsas götürərək həmişə öz işinə diqqətlə, peşəkarcasına yanaşır...”.

Əməkdar incəsənət xadimi, kinooperator **Kənan Məmmədov**: “Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bitirib Bakıya qayıtdıqdan sonra ilk işlərimdən biri görkəmli rejissor Tofiq Tağızadənin “Evin kişisi” bədii filmi oldu. Filmdə Rafis müəllimlə birgə çalışdıq. Tofiq müəllim, Rafis İsmayılov və mən natura çəkilişlərini müəyyənləşdirmək üçün Yardımlıya, Şəkiyə getdik. Rafis müəllim həmin illərdə artıq kinostudiyanın rəssamı kimi irihəcmli filmlərdə çalışmışdı. O, hər hansı bir səhnəni çəkməyimizi müəyyənləşdirəndə işığın çıxmasını, batmasını çox yaxşı nəzərə alırdı, mənə də başa salırdı. Bu mənada o, təsvir nöqteyi-nəzərindən kinoda birinci müəllimim olub.

“Qara gölün cəngavərləri” filmində biz yenidən görüşdük. Filmdə natura çəkilişlərini, buruqları, dekorasiyaları Rafis müəllimlə birlikdə çox böyük həvəslə qurur, naturanı seçir, sonra isə çəkilişlər aparılırdı. Film üçün natural şəkildə 12 ədəd mədən, baraklar, quyu və mövzuya uyğun olan başqa tikililər qurduq. Bununla yanaşı, epizodların necə qurulmasına da diqqət edirdik.

Kinorejissor Rasim Ocaqovun çəkdiyi dörd filmdə Rafis müəllimlə birgə işləmişəm. Kadrların bir çoxu orta və böyük plan üzərində qurulub. “Özgə ömür” filmində rektorun kabineti və kabinetin qarşısındakı katibənin oturduğu yer, dəhliz kompleks olaraq böyük bir dekorasiyadır. Baş rolu (Fariz Rzayev) oynayan Rusiyanın məşhur aktyoru Aleksandr Kalyagin tamaşalardan vaxt tapıb çəkilişə gələ bilmədiyindən Rafis müəllim ona aid olan kadrları Moskvada, M.Qorki adına kinostudiyanın pavilyonunda qurmuşdu.

Rafis müəllimlə çalışdığımız daha bir ekran işi “Fəryad” filmi oldu. Natura səhnələrini əsasən Goranboy rayonunda, Murovdağın ətəyində çəkdik. Çəkilişləri fevral ayının əvvəlində, qarlı havada aparırdıq. Həmin yerləri Rafis müəllimlə birgə seçmişdik. Dekorasiya çəkilişlərini isə kinostudiyanın pavilyonunda qurmuşduq. Orda böyük bir ev və onun zirzəmisini də tikdik. Filmin əsas səhnələrini həmin dekorasiyada çəkdik. Filmə lazım olan detallar, pəncərə, otaq hamısı filmdə real görünürdü. Kadrların hamısı Rafis İsmayılovun eskizləri əsasında qurulmuşdu...”.

Yenidən Rafis müəllimlə söhbətə qayıdırıq...

– *Mövzuya uyğun olaraq kinonun koloritini rəssamlar yaradır. Filmin bütün çəkilişlərində iştirak edirsiniz, yoxsa rejissorlar rəssamlarsız işləyə bilər?*

– Yox, rəssamsız filmin koloritini qurmaq mümkün deyil. “Fəryad” filmində İsmayılın anasını xatırladığı, göz önündə canlandırdığı kadrlar var. Bir rəssam olaraq çalışdım ki, həmin səhnə cənnətməkanı xatırlatsın və emosional alınsın.

Bəllidir ki, bu filmdə kədərli səhnələr də çoxdur. Xocalı qırğınını canlandırdığımız kadrları qışda çəkdik. Assistentlərimizə dedik ki, həmin kütləvi səhnələrin çəkilişində 200 nəfər adam iştirak etməlidir. Assistentlərimiz Goranboy yaxınlığında mehmanxanada qalanda çəkiliş üçün adam lazım olduğunu bildiriblər. Onlara deyiblər ki, mehmanxanada məskunlaşan insanlar öz doğma ev-eşiyindən didərgin salınan Xocalı sakinləridir. Həmin insanlar filmdə çəkiləcəklərini bildirərək çəkiliş meydançasına gəlmişdilər. Qarın üzərində uzanmış halda olan insanları çəkəndə filmin rejissoru Ceyhun Mirzəyevin ağladığını gördüm. Səbəbini soruşanda, “ay Rafis, Xocalı faciəsini bu insanlar onsuz da yaşayıblar. İndi onlar bir daha həmin dəhşətli hadisələri xatırlayırlar” dedi.

– *Teatrlarda bir neçə tamaşaya rəssam kimi quruluş vermisiniz. Teatr və kino fəaliyyətinizin fərqi nədədir?*

– Teatrda şərtilik var. Kino isə şərtiliyi qəbul etmir. Burda hər bir çəkiliş dəqiq olmalıdır, kadrlar inandırıcı görünməlidir. Şərtilik özü də böyük bir fantaziya, yaradıcılıq tələb edir. Teatrda işləyərkən də qarşımda yeni bir dünya canlanırdı. Amma kinonun öz qanunları var.

Kənan Məmmədov: “Qətldən yeddi gün sonra” filminin natura çəkilişlərini Rafis müəllimlə birlikdə Moskvada seçdik. Baş rolları Donatas Banionis, Yuri Yakovlev, Tatyana Lyutayeva və Moskvanın digər məşhur aktyorları oynayırdı. Aktyorlar tez-tez Bakıya gələ bilmədiyi üçün dekorasiyaların bir çoxunu Rafis müəllim Moskvada qurdu. Filmdə Mixail Romanoviçin (aktyor Yuri Yakovlev) evi, iş otağı işıq-təsvir baxımından incəliklə, dövrə aid olan əşyalara görə isə dəqiqliklə qurulub. Ümumiyyətlə, Rafis İsmayılov rəssam kimi böyük sənətkardır və kino çəkilişinin incəliklərini gözəl bilir. Onunla işləmək mənim üçün həmişə rahat olub.”

Rafis İsmayılovun sözügedən filmlə bağlı əlavələri də yerinə düşür: “Mixail Romanoviçin evinin dekorasiyasını M.Qorki adına kinostudiyada qurmaq üçün Moskvaya ezam olundum. Orda Sergey Portnoy adlı rəssamı mənə köməkçi verdilər və kinostudiyanın sexindən istədiyim mebelləri əldə edə biləcəyimi dedilər. Kinostudiyanın rekvizitlər saxlanılan yerindən filmə lazım olan mebelləri seçdim və Rasim Ocaqova da bildirdim. Ertəsi günü həmin mebellərdən digər filmin çəkilişlərində istifadə edəcəklərini bildirib, bizə verə bilməyəcəklərini dedilər. Belə olduğu halda mən sınıq mebellərin hara atıldığını soruşdum. Kinostudiyada sınıq əşyaları topladıqları yerə gedib bizə lazım olan köhnə mebellərdən seçib təmir etdirdim. Qurduğum dekorasiya və mebellərdən uğurla istifadə etdik. Çəkilişlərimiz bitdikdən sonra isə dekorasiyanı sökməməyimizi bizdən xahiş etdilər və bildirdilər ki, həmin dekorativ fonda film çəkəcəklər. Sonra eşitdim ki, “Qətldən yeddi gün sonra” filmində istifadə olunan dekorasiya və rekvizitlərdən dörd filmin çəkilişlərində istifadə ediblər.

M.Qorki adına kinostudiyanın rəhbərliyi bir neçə dəfə Sergey Portnoy vasitəsilə mənə orada işləmək barədə təklif göndərsə də, bu təklifə razı olmadığımı bildirdim...”.

Kənan Məmmədov: “Azərbaycanın müasir təsviri incəsənətində miniatür janrında da işləyən əziz dostum mənə bu sənətin nümunəsi olan iki tablo bağışlayıb. Onlardan biri “Əlibaba və qırx quldur” mövzusunda olan miniatür əsərdir ki, evimdə saxlayıram və ona baxanda böyük zövq alıram. Digəri isə “Cavad xan” filminə aid olan miniatür üslubda eskizlərdir.

Rafis İsmayılovla çox səfərlərdə, ölkələrdə olmuşam. O, dost kimi dəyərli, istiqanlı insandır. Onunla həm sənətkar, həm də bir dost kimi ünsiyyətdə olmaq maraqlıdır və xoşdur...”.

**Şəhla Əmirli**
**kinoşünas**

## Ordubadinin 150 illiyi münasibətilə virtual sərgi

Bu il görkəmli nasir, dramaturq, publisist, tərcüməçi, Əməkdar incəsənət xadimi Məmməd Səid Ordubadinin (1872-1950) 150 illik yubileyi qeyd olunur.

M.S.Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının böyük ustadı kimi tanınır. Müəllifin “Dumanlı Təbriz”, “Döyüşən şəhər”, “Qılınc və qələm” və s. romanları Azərbaycan tarixinin müxtəlif dövrləri haqqında oxucuda dolğun təəsürat yaradır.

Ədibin yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən “Məmməd Səid Ordubadi – 150” adlı virtual sərgi hazırlanıb. Virtual sərgidə yazıçının kitabları, həyat və yaradıcılığı haqqında dövri mətbuat səhifələrində dərc olunan məqalələr, fotolar nümayiş olunur.

Virtual sərgi ilə kitabxananın saytında tanış olmaq olar.

## Xatirə təqvimi — 23–30 mart

**23 mart 1915** – Tanınmış rəqqas, Xalq artisti Əlibaba Əbdül oğlu Abdullayev (1915 – 10.10.1980) anadan olub. Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupuna rəhbərlik edib. “O olmasın, bu olsun”, “Əhməd haradadır?”, “Ulduz”, “Dəli Kür” və s. filmlərdə rəqslərin quruluşçusu olub.

**23 mart 1920** – Görkəmli bəstəkar, Xalq artisti, professor Əşrəf Cəlal oğlu Abbasov (1920 – 8.2.1992) Şuşada anadan olub. İlk milli uşaq baleti (“Qaraca qız”), musiqili komediyalar (“Dağlar qoynunda”, “Həyatım mənim, həyatım mənim” və s.), simfonik əsərlərin müəllifidir. Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1953-1957) olub.

**23 mart 1929** – Əməkdar artist, vokalçı Firuzə Ramazan qızı Muradova (1929-1987) Bakıda doğulub. Opera və Balet Teatrının solisti olub.

**23 mart 1930** – Əməkdar artist Şəfiqə Şirməmməd qızı Axundova (1930-2005) Lənkəranda doğulub. Azərbaycan Dövlət Kukla Teatrının aktrisası olub, rejissor köməkçisi işləyib.

**23 mart 1942** – Əməkdar artist Rza Darablı (Rza Nəcəfəli (Nəcəfqulu) oğlu Hüseynov; 1883-1942) vəfat edib. 1919-cu ildən Azərbaycan Dövlət Teatrında aktyor kimi çıxış edib. Bakı Teatr Məktəbində dərs deyib, filmlərə çəkilib.

**23 mart 1957** – Əməkdar mədəniyyət işçisi, şair İsmayıl Cabir oğlu Dadaşov (1957 – 22.10.2020) anadan olub. “Azərbaycanfilm”də musiqi redaktoru işləyib.

**24 mart 1872** – Yazıçı, dramaturq, publisist, Əməkdar incəsənət xadimi Məmməd Səid Hacağa oğlu Ordubadi (1872 – 1.5.1950) Naxçıvanın Ordubad şəhərində doğulub. “Dumanlı Təbriz”, “Qılınc və qələm”, “Döyüşən şəhər”, “Gizli Bakı” romanları ilə Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi sayılır.

**24 mart 1927** – Teatr rejissoru, Əməkdar incəsənət xadimi Məbud İbrahim oğlu İsmayılzadə (1927 – 17.9.2004) Zərdab rayonunda doğulub. Lənkəran Dram Teatrının ilk bədii rəhbəri və direktoru (1973-1981) olub.

**24 mart 1938** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Hənağa Səttar oğlu Turabov (1938 – 23.2.2003) anadan olub. 1960-cı ildən Akademik Dram Teatrında çalışıb, teatra rəhbərlik (1987-2001) edib. “Yeddi oğul istərəm”, “Babək”, “Qəm pəncərəsi” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb, “Qanlı zəmi” (“Atları yəhərləyin”) filminə quruluş verib.

**25 mart 1897** – Teatrşünas, publisist, Əməkdar mədəniyyət işçisi Qulam Məmməd oğlu Məmmədli (1897 – 18.11.1994) Təbrizdə doğulub. “Azərbaycan teatrının salnaməsi”ni yazıb.

**25 mart 1905** – Əməkdar artist Heydər Məşədi Aslan oğlu Şəmsizadə (1905-1981) Şuşada doğulub. Aşqabadda (Türkmənistan) “Arşın mal alan”ı səhnəyə qoyub, Ağdam teatrının baş rejissoru olub.

**25 mart 1907** – Şair Almas İldırım (İldırım Əbdülməhəmməd oğlu Almaszadə; 1907 – 14.1.1952) Bakıda doğulub. İstiqlal və millətçilik ruhlu şeirlərinə görə 1930-cu ildə Türkmənistana sürgün edilib. 1933-cü ildə İrana, oradan da Türkiyəyə mühacirət edib. Elazığda vəfat edib.

**25 mart 1933** – Şair, dramaturq Rüfət Zülfüqar oğlu Əhmədzadə (1933 –15.12.1988) Bakıda anadan olub. “Bildirçinin bəyliyi”, “Zarafatsız zarafat”, “Sonuncu məhəbbət” və s. komediyaların, satirik şeirlərin müəllifidir.

**26 mart 1893** – Opera müğənnisi, Xalq artisti Fatma Səttar qızı Muxtarova (1893 – 19.10.1972) Cənubi Azərbaycanın Urmiya şəhərində doğulub. 1938-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub.

**26 mart 1902** – Əməkdar artist, xanəndə Yavər Əli qızı Kələntərli (1902 – 5.2.1979) Şamaxıda anadan olub.

**26 mart 1910** – Görkəmli aktyor, SSRİ Xalq artisti Ələsgər Hacıağa oğlu Ələkbərov (1910 – 31.1.1963) anadan olub. 1933-cü ildən Akademik Milli Dram Teatrında fəaliyyət göstərib. Filmlərdə (“Fətəli xan”, “Qara daşlar”, “Səhər”, “Böyük dayaq” və s.) unudulmaz obrazlar yaradıb.

**26 mart 1910** – Yazıçı-dramaturq Sabit Rəhman (Sabit Kərim oğlu Mahmudov; 1910 – 21.9.1970) Şəkidə anadan olub. Pyesləri: “Toy”, “Xoşbəxtlər”, “Əliqulu evlənir”, “Nişanlı qız” və s. “Əhməd haradadır?”, “Ulduz” filmlərinin ssenari müəllifidir.

**26 mart 1919** – Əməkdar artist Əminə Abbas qızı Nağıyeva (1919-1977) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, filmlərə çəkilib.

**26 mart 1926** – Tarixçi alim, AMEA-nın müxbir üzvü Oqtay Əbdülkərim oğlu Əfəndiyev (1926-2013) Bakıda anadan olub.

**27 mart 1917** – Əməkdar artist, vokalçı (soprano) Mariya Sergeyevna Titarenko (1917 – 26.9.2002) Moskvada doğulub. Opera və Balet Teatrının solisti olub.

**27 mart 1927** – Məşhur violonçel ifaçısı, dirijor, SSRİ Xalq artisti Mstislav Leopoldoviç Rostropoviç (1927 – 27.4.2007) Bakıda doğulub.

**27 mart 1928** – Əməkdar mədəniyyət işçisi Hüseyn Həsən oğlu Əhmədov (1928-2016) anadan olub. Azərbaycan Dövlət Kukla Teatrının ədəbi dram hissə müdiri işləyib.

**27 mart 1937** – Kino rəssamı Fikrət İbrahim oğlu Əhədov (1937 – 2.11.1994) Bakıda anadan olub. “Qərib cinlər diyarında”, “Yol əhvalatı”, “Kişi sözü” və s. filmlərə bədii tərtibat verib.

**27 mart 1986** – Görkəmli aktyor Səməndər Mənsim oğlu Rzayev (2.1.1945 – 1986) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə unudulmaz obrazlar qalereyası yaradıb.

**27 mart 2020** – Xalq artisti, müğənni Rauf Yusif oğlu Babayev (30.12.1937 – 2020) vəfat edib. 1960-70-ci illərdə “Qaya” kvartetinin solistlərindən biri kimi məşhurlaşıb.

**28 mart 1886** – SSRİ Xalq artisti Sidqi Ruhulla (Ruhulla Fətulla oğlu Axundov; 1886 – 5.5.1959) Bakının Buzovna kəndində doğulub. Tiflisdə Azərbaycan teatrının inkişafında, Təbrizdə milli teatrın yaradılmasında xidmətlər göstərib. 1924-cü ildən Azərbaycan Dövlət Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**28 mart 1895** – Tanınmış ədəbiyyatşünas, tərcüməçi Əziz Şərif (Əziz Qurbanəli oğlu Şərifzadə; 1895 – 1.6.1989) Naxçıvan şəhərində doğulub.

**28 mart 1896** – Əməkdar artist Əli Fətulla oğlu Şahsabahlı (1896-1973) Tiflisdə doğulub. İrəvan Dövlət Azərbaycan Dram Teatrında çalışıb.

**29 mart 1938** – Əməkdar mədəniyyət işçisi Marat Mikayıl oğlu İsgəndərov (1938 – 19.6.2013) anadan olub. “Azərbaycanfilm” Kinostudiyasında səs operatoru, Dövlət Film Fondunda baş mühəndis işləyib.

**29 mart 1939** – Yazıçı-dramaturq Süleyman Sani Axundov (3.10.1875 – 1939) vəfat edib. Yazıçının “Qorxulu nağıllar” adı altında toplanan hekayələri Azərbaycan uşaq ədəbiyyatının klassikası sayılır.

**29 mart 1946** – Əməkdar artist Nazir Kərim oğlu Əliyev (1946-1997) Lənkəranda anadan olub. Sumqayıt, Naxçıvan, Lənkəran teatrlarında çalışıb, filmlərə çəkilib.

**29 mart 1951** – Əməkdar incəsənət xadimi, professor Azad Sabir oğlu Əliyev (1951 – 30.3.2014) Bakıda doğulub. Azərbaycan Televiziyası və Radiosu Niyazi adına simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru olub.

**29 mart 1924** – Şair, tərcüməçi, Dövlət mükafatı laureatı Teymur Elçin (Teymur Süleyman oğlu Əliyev; 1924 – 14.3.1992) Şuşa şəhərində anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir, rus ədəbiyyatından tərcümələr edib.

**30 mart 1908** – Əməkdar incəsənət xadimi, rəssam Şamil bəy Həsən oğlu Qazıyev (1908-1980) İrəvan şəhərində doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rəssam olub.

**30 mart 1949** – Xalq artisti, xanəndə Səfa Hüseyn oğlu Qəhrəmanov (1949 – 5.5.2008) Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olub. Muğam operalarında (“Leyli və Məcnun”da Məcnun, İbn Səlam, “Şah İsmayıl”da Şah İsmayıl və s.) çıxış edib.

**Hazırladı: Vüqar Orxan**

№23-24 (1897)
30 mart 2022
www.medeniyyet.az

# Daşkənddə "Xalqların adət-ənənələri və mətbəxi"

## Festivalda ölkəmiz də təmsil olunub

Daşkənddəki Beynəlxalq Britaniya Məktəbində "Xalqların adət-ənənələri və mətbəxi" festivalı keçirilib. Festivalda müxtəlif ölkələrin Özbəkistandakı səfirlikləri və mədəniyyət mərkəzləri iştirak ediblər.





Ölkəmizi festivalda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) təmsil edib. Guşəmizdə ölkəmizlə bağlı nəşrlər, eləcə də Azərbaycanın tarixi və mədəniyyəti haqqında AMM-in özbək dilində çap etdirdiyi kitablar nümayiş olunub.

Guşədə 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan olunması ilə əlaqədar Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın tarixi, mədəni mirası və şəhərdə yaşayıb-yaratmış görkəmli şəxsiyyətlər haqqında məlumatlar da yer alıb. Qarabağ bölgəsinin milli kişi və qadın geyimləri təqdim olunub. AMM-in dərnək üzvlərinin əl işləri və suvenirlər, habelə Azərbaycanın müxtəlif bölgələrindən xalçalar və milli musiqi alətləri də maraqla qarşılanıb.

Novruz bayramı münasibətilə şagirdlər və tədbirin qonaqları üçün Azərbaycan guşəsində yumurtanın müxtəlif rəng və naxışlarla bəzədilməsi nümayiş olunub.

Tədbir çərçivəsində qonaqlara mətbəx nümunələrimiz təqdim olunub, şəkərbura, paxlava və digər şirniyyatların satışı həyata keçirilib. Bildirilib ki, satışdan əldə olunan vəsait uşaq evlərinin fonduna köçürüləcək.

Festivalın konsert proqramında AMM-in nəzdində "Azərbaycan qızları" rəqs ansamblı da çıxış edib.

# Kazanda "Müsəlman dünyasının müasir musiqisi"

Tatarıstanın paytaxtı Kazanda Volqaboyu bulqarlarının (Bulqar xanlığı – tatarca İdel Bolqar) İslam dininin qəbul edilməsinin 1100 illiyinə həsr olunmuş konsert proqramı keçirilib.

Salih Saydaşev adına Konsert Salonunda keçirilən "Müsəlman dünyasının müasir musiqisi" adlı proqramda Azərbaycan, Qazaxıstan, Tacikistan, Türkmənistan, habelə Rusiya Federasiyası regionları bəstəkarlarının əsərləri səsləndirilib.

Kazan Konservatoriyasının Simfonik orkestri Bakı Musiqi Akademiyasının dosenti Aliyə Məmmədovanın "Adagio" və "Xəyal" simfoniyalarının finalını da ifa edib.

# Nizami Kino Mərkəzində Braziliya filmləri festivalı

Azərbaycan Respublikası ilə Braziliya Federativ Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə martın 30-dan aprelin 3-dək Nizami Kino Mərkəzində Braziliya filmlərinin festivalı keçiriləcək.

Festival Mədəniyyət Nazirliyi və Braziliya Federativ Respublikasının Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə reallaşacaq.

Festival çərçivəsində 4 bədii və 1 sənədli filmin nümayişi planlaşdırılır.

# Astrid Lindqren mükafatının builki sahibi məlum olub

Məşhur İsveç yazıçısı, uşaqlar üçün maraqlı əsərlərin müəllifi Astrid Lindqrenin (1907-2002) xatirəsinə həsr edilmiş beynəlxalq mükafatın 2022-ci il üzrə qalibi elan olunub.

Uşaqlar və gənclər üçün ədəbiyyat sahəsində nailiyyətlərə görə verilən mükafata bu il isveçli yazıçı və rəssam-illüstrator Yeva Lindström layiq görülüb. O, 71 ölkədən 262 namizəd arasından seçilərək laureat olub.

Yeva Lindström 1952-ci ildə anadan olub. Stokholmda Konstfak Rəssamlıq Kollecində təhsil alıb. Y.Lindströmün diqqətçəkən yumoristik üslubu həm mətnlərində, həm də rəsmlərində hiss olunur.

Qeyd edək ki, İsveç hökuməti Astrid Lindqren mükafatını 2002-ci ildə – yazıçının vəfatından (28 yanvar) sonra təsis edib. Mükafat fondu 5 milyon İsveç kronuna bərabərdir. Bu, uşaqlar və gənclər üçün ədəbiyyat sahəsində nailiyyətlərə görə verilən ən böyük (məbləğinə görə) mükafatdır.



# 94-cü "Oskar"ın qalibləri

Amerika Kino Sənəti Akademiyası martın 28-nə keçən gecə 94-cü "Oskar" mükafatının qaliblərini elan edib. Los-Ancelesdə keçirilən mükafatlandırma mərasimi "ABC" telekanalı vasitəsilə canlı yayımlanıb.

"Oskar"ın əsas nominasiya ("Ən yaxşı film") üzrə mükafatını amerikalı rejissor və ssenarist Şan Hederin (Sian Heder) "CODA: Kar valideynlərin övladı" filmi qazanıb. Komediya-dram janrında çəkilən film lal-kar ailənin yeganə eşidən üzvü olan yeniyetmə qızın hekayəsindən bəhs edir. Məktəb xorunun rəhbəri qızı çətin seçim qarşısında qoyaraq onu musiqi məktəbinə getməyə razı salır. Filmdəki rolların əksəriyyətini kar-lal aktyorlar oynayıblar.

Şan Heder bu filmə görə həmçinin "Ən yaxşı adaptasiya edilmiş ssenari" nominasiyası üzrə mükafat qazanıb. "CODA: Kar valideynlərin övladı" Fransa istehsalı olan "Beliye ailəsi" (La famille Blier, 2014) filminin ingilis dilində remeykidir.

94-cü "Oskar"ın əsas favoriti sayılan Yeni zelandiyalı Ceyn Kempion isə "Köpəyin hökmranlığı" ("The Power of the Dog") filminə görə "Ən yaxşı rejissor" mükafatını qazanıb. Xatırladaq ki, "Köpəyin hökmranlığı" bunadək Amerikanın ikinci kino mükafatı sayılan "Qızıl qlobus"a, həmçinin Britaniya Film və Televiziya Sənəti Akademiyasının (BAFTA) "Ən yaxşı film" mükafatına layiq görülmüşdü.

Cessika Çesteyn rejissor Maykl Şouolterin çəkdiyi "Temmi Feyin gözləri" (2021) filmindəki baş rola görə "Ən yaxşı aktrisa" nominasiyası üzrə "Oskar" heykəlciyini qazanıb. O, filmdə ötən əsrin 70-80-ci illərində xristian teleşousunda çıxış etmiş evangelist Temmi Fey Bekeri canlandırıb. Bundan öncə aktrisa bu rola görə "Qızıl qlobus" mükafatına layiq görülmüşdü.





"Ən yaxşı kişi aktyor" nominasiyası üzrə "Oskar" mükafatı isə "Kral Riçard" filmindəki (rejissor Markus Qrin) roluna görə ABŞ aktyoru və musiqiçisi Vill Smitə verilib. Aktyor bundan öncə bu rola görə BAFTA mükafatını da qazanmışdı.

Yeri gəlmişkən, "Oskar" mərasimində Vill Smitə mükafat təqdim edilərkən qalmaqal da baş verib. Mərasimin aparıcısı aktyor Kris Rok çıxışı zamanı Vill Smitin həyat yoldaşının qısa saçları ilə bağlı (Ceyd Pinketin saçları xəstəlik səbəbindən tökülür) yersiz zarafat edib. Bundan sonra Smit səhnəyə qalxaraq Roka şillə vurub. Rok isə şousuna davam edərək bu hadisəni televiziya tarixinin ən möhtəşəm gecəsi adlandırıb.

Amerikalı rejissor Deni Vilnevin "Düna" ("Dune: Part One") fantastik filmi əsas nominasiyalarda qalib olmasa da, ümumilikdə 6 "Oskar" heykəlciyi ("Ən yaxşı viziual effektlər", "Ən yaxşı film musiqisi", "Ən yaxşı operator işi", "Ən yaxşı montaj", "Ən yaxşı rəssam-rejissor", "Ən yaxşı səs" – "Academy Award for Best Sound") qazanıb.

94-cü "Oskar" gecəsində 20-dən çox nominasiya üzrə mükafatlar təqdim edilib.

# Kann kinofestivalına ilk dəfə qadın rəhbərlik edəcək



Kann Beynəlxalq Film Festivalına ilk dəfə qadın rəhbərlik edəcək. Festival təşkilatçılarının yaydığı məlumata görə, Ayris Knoblox (İris Knobloch) dünyanın bu ən nüfuzlu kino müsabiqəsinin prezidenti təyin edilib.

O, 2022-ci il 1 iyul tarixində vəzifəsinin icrasına başlayacaq və 3 il müddətində bu postu tutacaq. Ayris Knoblox səkkiz ildir bu vəzifədə olan Pyer Leskürü (Pierre Lescure) əvəz edəcək.

Ayris Knoblox 2020-ci ilədək "Warner Bros" kino şirkətinin (ABŞ) Fransadakı fəaliyyətinə rəhbərlik edib, eyni zamanda Almaniya, Avstriya və İsveçrədəki layihələrin kuratoru olub. 2021-ci ildə Fransada "Oskar" komitəsinin üzvü olub.

"Kann Film Festivalının prezidenti postunun mənə etibar edilməsi Fransa tərəfindən mənə göstərilən böyük şərəfdir. Xoşbəxtəm ki, bütün enerjimi bu dünya miqyaslı festivala sərf edə biləcəyəm", – deyə Ayris Knoblox bildirib.

Qeyd edək ki, sayca 75-ci Kann Beynəlxalq Film Festivalı 2022-ci ilin 17-28 may tarixində keçirilməlidir. 1946-cı ildə əsası qoyulan Kann kinofestivalı indiyədək bir dəfə, 2020-ci ildə COVİD-19 pandemiyası səbəbindən keçirilməyib.

# Dubaydan sonra Osaka – "Expo-2025"ə hazırlıq başlanıb



Martın 31-də "Dubay Expo-2020" sərgisi başa çatacaq. Pandemiya səbəbindən bir il ertələnən və 2021-ci il oktyabrın 1-də açılan dünya sərgisinə 190-dan çox ölkə qatılıb. Azərbaycan "Dubay Expo-2020"də Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Gələcəyin toxumları" mövzulu milli pavilyonla təmsil olunub.

Bu arada Yaponiyanın Osaka şəhərində keçiriləcək "Expo-2025" sərgisinə hazırlıq başlanıb. Təşkilat komitəsi martın 22-də beynəlxalq tədbirin rəmzini ictimaiyyətə təqdim edib. "Expo-2025"in siması sudan əmələ gələn qeyri-adi varlıq şəklində təsvir edilib.

Təşkilat komitəsindən bildiriblər ki, rəmzin bu variantda dizaynı çoxsaylı namizədlər arasından səsvermə yolu ilə seçilib. "Ümid edirik ki, bu personaj "Osaka Expo"nun rəmzi olaraq dünya tərəfindən qəbul edilərək seviləcək", - deyə təşkilatçıların yaydığı məlumatda qeyd edilir.

Xatırladaq ki, Expo – dünya universal sərgiləri 1851-ci ildən təşkil olunur və yeni nailiyyətləri və texnologiyaları təqdim etmək üçün ən böyük platforma hesab edilir. Ötən dövrdə müxtəlif aralıqlarla keçirilən Expo Dünya Sərgisi XXI əsrdə beş ildən bir təşkil edilir. Dubaydan öncə "Expo-2015"ə Milan (İtaliya) ev sahibliyi etmişdi. 2025-ci ildə isə bu beynəlxalq tədbiri Yaponiyanın Osaka şəhəri qəbul edəcək.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 221 il əvvəl...

**24 mart 1801-ci ildə** Rusiya imperiyasında növbəti saray çevrilişi olub. Oğlu Aleksandrın razılığı ilə Çar I Pavel qətlə yetirilib. Bundan sonra Rusiya taxt-tacında I Aleksandrın 24 illik çarlığı başlayıb.

### 166 il əvvəl...

**30 mart 1856-cı ildə** Krım müharibəsinin (1853-1856) yekunlarına dair Parisdə Fransa, Prussiya, Britaniya, Türkiyə, Rusiya arasında sülh müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, müharibə nəticəsində mövqelərini xeyli itirən Türkiyə və Rusiya Qara dənizdə hərbi donanma saxlamaq hüququndan məhrum edilib. Osmanlı imperiyasının tərkibində Serbiya, Moldaviya, Valaxiyaya muxtariyyət təmin olunub.

### 155 il əvvəl...

**30 mart 1867-ci ildə** Rusiya Alyaskanı ABŞ-a satıb. Müqaviləyə əsasən, Rusiya imperiyasına daxil olan Alyaska yarımadası, habelə Aleut adaları və bir sıra kiçik adalar (ümumi sahəsi 1,519 milyon kvadrat kilometr) 7,2 milyon dollar (qızılla) müqabilində ABŞ-a verilib. Maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün buzlaqlarla örtülü nəhəng ərazini satanda Rusiyada heç kimin ağlına gəlmirdi ki, nə vaxtsa burada zəngin neft yataqları aşkarlanacaq.

### 104 il əvvəl...

**30 mart 1918-ci ildə** Bakıda erməni-daşnak və bolşevik dəstələrinin azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınları başlayıb. Ermənilər qırğına əvvəlcədən hazırlaşmışdılar. Türkiyə cəbhəsindən geri dönən rus əsgərlər S.Şaumyanın başçılıq etdiyi "Bakı Soveti"nin sərəncamında idilər. Dünya müharibəsindən qayıdan azərbaycanlıların əksəriyyəti isə Bakı yaxınlığında tərk-silah edilmişdi.

### 79 il əvvəl...

**23 mart 1943-cü ildə** alman faşistləri Belarusun Xatın kəndini əsasən qoca-qadın və uşaqlardan ibarət əhalisi ilə birlikdə yandırıblar. Kənddə 149 nəfər, o cümlədən 75 uşaq qətlə yetirilmişdi.

### 77 il əvvəl...



**27 mart 1945-ci ildə** Azərbaycan SSR Elmlər Akademiyası fəaliyyətə başlayıb. Akademiya SSRİ Xalq Komissarları Sovetinin 23 yanvar 1945-ci il tarixli qərarı ilə SSRİ EA-nın Azərbaycan Filialının bazasında təşkil olunmuşdu. SSRİ-nin müsəlman respublikaları arasında ilk EA Azərbaycanda yaranmışdı.

### 75 il əvvəl...

**23 mart 1947-ci ildə** Britaniyanın Hindistan üzərində müstəmləkəsi dağılandan sonra Pakistan da müstəqilliyini elan edib. 1956-cı ildən Pakistan İslam Respublikası adlanır. Hindistanla Pakistanın ayrılması münaqişəsiz ötüşmədi, 1965 və 1971-ci illərdə iki ölkə arasında müharibə baş verdi. Münaqişəli Kəşmir məsələsi indiyədək həll edilməyib.

### 68 il əvvəl...

**25 mart 1954-cü ildə** Avropanın 6 dövləti (Fransa, Belçika, Lüksemburq, AFR, İtaliya, Niderland) Romada Avropa İqtisadi Birliyinin ("Ümumi bazar") və Avropa Atom Enerjisi Birliyinin yaradılması barədə müqavilə imzalayıb. Bu qurumlar gələcək Avropa Birliyinin əsasını qoydu.

### 51 il əvvəl...

**26 mart 1971-ci ildə** Banqladeş Pakistandan ayrılıb. Britaniyanın müstəmləkəsi olan Banqladeş 1947-ci ildə Pakistan müstəqillik qazanarkən bu dövlətin tərkibində əyalət (Şərqi Benqaliya) idi. 1971-ci ildə referendum nəticəsində Pakistandan ayrılaraq müstəqil dövlət oldu. Ayrılma qarşılıqlı razılaşma əsasında baş verdi.

### 43 il əvvəl...



**26 mart 1979-cu ildə** Vaşinqtonda (Kemp-Devid iqamətgahı) ABŞ-ın vasitəçiliyi ilə ilyarım sürən İsrail-Misir danışıqları sülh müqaviləsi ilə yekunlaşıb. Sənədi İsrailin Baş naziri Menahem Beqin və Misir Prezidenti Ənvər Sədat imzalamışdı. Müqaviləyə ("torpaq əvəzinə sülh") əsasən, İsrail işğal etdiyi Sinay yarımadasından çəkildi, Misir də onun suverenliyini qeyd-şərtsiz tanıdı.

### 33 il əvvəl...

**26 mart 1989-cu ildə** SSRİ-də alternativlik şəraitində ilk seçki keçirilib. SSRİ Xalq Deputatları Qurultayının 2250 deputat (ərazi, milli-ərazi seçki dairələri və ictimai təşkilatlar üzrə 750 nəfər kvota) yeri uğrunda 10 min namizəd mübarizə aparıb.

### 30 il əvvəl...

**24 mart 1992-ci ildə** ATƏM (1995-ci ildən ATƏT) Şurasının Helsinkidə keçirilən toplantısında Qarabağ münaqişəsinin nizamlanması üzrə Minskdə konfrans keçirmək barədə qərar qəbul edilib. Sonrakı müddətdə Minsk konfransı çağırılmasa da, Minsk qrupu Qarabağ münaqişəsində vasitəçilik təsisatı kimi formalaşdı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 866
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641